RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 60 (8939) ŞƏNBƏ, 19 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Həm idmançılarımız, həm də digər gənclərimiz beynəlxalq tədbirlərdə müzəffər Azərbaycan dövlətinin təmsilçiləri kimi iştirak edirlər

**Prezident İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş Güləş üzrə VII Avropa Çempionatının iştirakçılarını qəbul etdi. Gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atıblar, Vətənə 7-si qızıl olmaqla, 16 medalla dönüblər.**

**Bu uğur, ilk növbədə Azərbaycanda həyata keçirilən idman siyasətinin təcəssümü idi. Digər tərəfdən, bu qələbə mütərəqqi gənclər siyasətinin göstəricisidir. Bu siyasətdən bəhrələnən Azərbaycan gənci hər bir beynəlxalq platformada dövlətimizi layiqincə təmsil edir.**

### Ali diqqətin və qayğının təcəssümü

**Respublikamızın inkişaf strategiyasına uyğun olaraq idman da dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi sürətlə inkişaf edir. Təsadüfi deyil ki, ötən illərdə hər bir sahədə olduğu kimi, Azərbaycanda idmanın tarixində də şərəfli səhifələr yazılıb, ölkəmizdə idman və olimpiya hərəkatının inkişafında böyük canlanma müşahidə olunub.**

*Ardı 3-cü səh.*



# Qalib xalqın nümayəndələri

## Qarabağa Böyük qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik

### Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Azərbaycan torpağında qədim köklərə malik Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur. Ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramı yüzillərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etmiş, milli özünüdərkin təşəkkülünə töhfələr vermiş, ali dəyərlərin daşıyıcısına çevrilərək insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırmışdır.

Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz, eyni zamanda Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərməğan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir.

Məhz parlaq Zəfərimizin qat-qat gücləndirdiyi xoş bahar ovqatı içində, artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yerlərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır.

Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş igid övladlarımızın xatirəsini bu bayram günlərində minnətdarlıqla yad edir, ölkənin müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə təbriklərimi yetirirəm.

Əminəm ki, xaricdəki soydaşlarımızın bizimlə birgə azərbaycançılıq məfkurəsi işığında baharı qarşılamaları onların qəlbində yurdumuza bağlılıq hisslərini daha da möhkəmləndirəcəkdir.

İrəlidə bizi ümumxalq əhəmiyyətli mühüm vəzifələrin həlli gözləyir. İnanıram ki, hər birimiz yaz fəslinin yeniləşdirici ab-havası ilə həmahəng ruh yüksəkliyi və həmrəylik şəraitində qurub-yaratmaq əzmi nümayiş etdirəcək, Qarabağa Böyük qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik.

Hamınıza bahar əhvali-ruhiyyəsi arzu edirəm. Qoy bu əziz bayram hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2022-ci il*

## Azərbaycan Güləş Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 23 yaşadək güləşçilərin Avropa çempionatında yüksək nəticə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Güləş Federasiyasına 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2022-ci il*

## Qisasımızı döyüş meydanında aldıq

### Azərbaycan müharibəni də ləyaqətlə apardı

"...İndi dünyada bir çox yerdə müharibələr gedib, gedir və əfsuslar olsun ki, gedəcək. Bu gedən müharibələrə diqqət yetirsək, hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görür".

Martın 17-də Azərbaycan Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə VII Avropa Çempionatının iştirakçılarının qəbulu zamanı səsləndirdiyi kimi, öz tarixi torpaqlarını işğalçılardan azad etmək üçün apardığı Vətən müharibəsində də Azərbaycan heç zaman insanpərvərliyini itirmədi, müharibə cinayətləri törətmədi.

Baxmayaraq ki, tarixin müxtəlif dönəmlərində və son 30 ildə Azərbaycan xalqı faşist xislətli erməni millətçiləri tərəfindən həyata keçirilən etnik təmizləməyə, soyqırımına məruz qalıb. Xalqımız bəşər tarixində bənzərinə rast gəlinməyən Xocalı soyqırımı kimi tükürpərdən bir faciə yaşayıb, soydaşlarımız doğma yurdlarından qovularaq köçkün həyatı keçirməyə məcbur olub. Amma genetik kodunda humanizm kimi yüksək bəşəri keyfiyyətlər kodlaşan xalqımız heç zaman qan tökülməsinə razı olmayıb, hər zaman sülhə tərəfdar çıxıb.

#### Ermənistan dinc əhaliyə qarşı terror törətdi

Hünər meydanında, açıq döyüşlərdə hər zaman qorxaqcasına qaçan, daim kimlərinsə kölgəsində dolanan, xislətində qəddarlıq, qaniçənlik, xainlik, namərdlik kimi naqis hisslər daşıyan erməni barbarları hər fürsətdə gücünü yalnız silahsız, müdafiəsiz insanların üzərində sınamağı üstün tutub.

2020-ci il sentyabrın 27-dən etibarən də erməni vandallarının namərd hücumlarının şahidi olduq. Dövlət siyasəti faşist ideologiyasına köklənmiş Ermənistan müharibə boyu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror törətdi. Hətta özlərinin yalvarışları sayəsində razılaşdırılıb elan edilmiş humanitar atəşkəs rejimlərini də hər dəfəsində kobudcasına pozan Ermənistan silahlı bölmələri gecə-gündüz yaşayış məntəqələrimizi atəşə tutdu.

*Ardı 3-cü səh.*



## Ən islahatçı Prezident

### İlham Əliyev Azərbaycanı siyasi-iqtisadi parametrlər üzrə kimdənsə asılı olmayan dövlətə çevirib

Son illər dünyada baş verən qlobal böhranlar, istər müharibələr, toqquşmalar, istərsə də pandemiya xarakterli gərginliklərin yaratdığı fəsadlar ilk növbədə dövlətlərin iqtisadi imkanlarına ciddi təsir göstərir. Bəzi dövlətlərdə yaranan maliyyə böhranları ağır nəticələrə səbəb olur.

Üzləşdiyi bütün problemlərdən ən az itki ilə çıxan Azərbaycan dövləti heç zaman iqtisadi cəhətdən zəifləməyib, hətta qlobal böhran şəraitində belə sosial layihələrini təxirə salmayıb və ölkənin sosial-iqtisadi durumu tənəzzül yaşamayıb. Bunun yeganə səbəbi isə siyasi və iqtisadi müstəqillik, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlardır. Məhz bu islahatların nəticəsində Azərbaycan iqtisadiyyatı nəinki dayanıqlılığını qoruyub, hətta müxtəlif sahələrdə inkişafı da təmin edib. Ötən ilin və bu ilin son 2 ayının statistik göstəricilərinə nəzər yetirsək bunu aydın şəkildə görə bilərik.

#### Valyuta ehtiyatlarımız xarici dövlət borcunu 7 dəfədən çox üstələyir

Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər xarici borc, istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından iqtisadi sahədə ən qabaqcıl yerlərdədir.

*Ardı 5-ci səh.*

## Naxçıvan iqtisadiyyatı: sürətli və tarazlı inkişaf nümunəsi

Müstəqillik illərində regionların iqtisadi və sosial inkişafı həmişə dövlətin diqqət mərkəzində olmuşdur. Milli iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olan regional inkişafa 2003-cü ildən sonra xüsusi diqqət yetirilmişdir.

Onların iqtisadi inkişafını genişləndirmək, mövcud təbii və əmək resurslarından tam və səmərəli istifadə etmək məqsədilə indiyə qədər 4 dövlət proqramı qəbul edilmişdir.

Bəri başdan bildirək ki, bu yazımızda 2004-2018-ci ilin yekunlarından istifadə etmişik. 3 regional inkişaf proqramının icrasından sonra iqtisadi inkişafın dinamikasını və miqyasını, habelə həlli vacib problemləri müəyyən etmək məqsədilə araşdırma aparmışıq. Məlum olmuşdur ki, 2004-2018-ci illərdə, yəni 3 regional inkişaf dövlət proqramının icrası üçün, Naxçıvan iqtisadi rayonunda əsas kapitala 9,6 mlyard manata qədər investisiya qoyulmuşdur. 2018-ci ildə 2003-cü illə müqayisədə onun həcmi 15,7 dəfə artmışdır ki, bu da Azərbaycan üzrə orta artım tempindən 4,6 dəfə çoxdur. Bu investisiyaların hesabına milyon manatlarla dəyəri olan 64 qeyri-neft emal sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, infrastruktur obyektləri modernləşdirilmiş, yüzlərlə mövcud müəssisə və istehsal sahələri yenidən qurulmuş və genişləndirilmişdir.

Bakı şəhəri nəzərə alınmadan, ölkənin regionlarında tikilib istifadəyə verilmiş qeyri-neft emal sənaye müəssisələrinin 30 faizindən çoxu Naxçıvan iqtisadi rayonunda yaradılmışdır. Bu dövrdə 57,5 min daimi iş yeri açılmışdır. Muzdla işləyənlərin sayı 2,3 dəfə artaraq 2018-ci ildə 105,2 min nəfərə çatmışdır. 2018-ci ildə ölkə regionlarından ancaq Bakı şəhərində və Naxçıvan Muxtar Respublikasında sənaye istehsalı 1990-cı ilin səviyyəsinə çatmış və 3,3 dəfə artıma nail olunmuşdur.

*Ardı 5-ci səh.*



## Bir ayda 5 minə yaxın yeni abonent

*Bax: səh. 6*

## Qlobal güclərin qarşıdurması ərzaq məhsullarının qiymətini artırır



Dünya iqtisadiyyatı yenidən ağır sınaq qarşısında qalıb. Budəfəki sınaq iqtisadi qanunauyğunluqdan deyil, siyasi çəkişmə, onun nəticəsi olan müharibədən qaynaqlanır.

*Bax: səh. 6*

# Şuşa şəhərində Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı keçirilib








Martın 18-də Şuşa şəhərində Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı keçirilib. Tədbirdə Azərbaycan Respublikasının yüksəksəviyyəli dövlət və hökumət rəsmiləri, BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi, BMT-nin Azərbaycandakı qurumlarının rəhbər şəxsləri iştirak ediblər.




AZƏRTAC xəbər verir ki, toplantı iştirakçıları əvvəlcə təyyarə ilə Qarabağın hava qapısına - Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Aeroport ilə yaxından tanış olduqdan sonra Zəfər yolu ilə Şuşaya səfər ediblər.

Toplantıda çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan BMT-yə qoşulduqdan təxminən iki ay sonra Şuşa Ermənistan silahlı birləşmələri tərəfindən işğal olundu. Azərbaycanlılar öz şəhərindən, yurdlarından didərgin salındılar. Ancaq 44 günlük Vətən müharibəsindən sonra Şuşa azad edildi. Bu gün Şuşa öz simasını günbəgün dəyişən və Azərbaycanın sürətlə inkişaf edən, yenidən qurulan bir şəhəridir.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan-BMT əməkdaşlığı 1990-cı illərdən bəri dəyişib. Həmin illərdə Azərbaycan humanitar yardım alan bir ölkə idi. Lakin 30 ildən sonra bugünkü Azərbaycan beynəlxalq ictimaiyyətin və BMT ailəsinin tamhüquqlu üzvüdür.

Azərbaycan ilə BMT arasında əməkdaşlığın tarixinə toxunan Hikmət Hacıyev bildirib ki, Azərbaycan 2012-2013-cü illərdə dünyanın 150-dən çox ölkəsinin səsi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Həmin illərdə Azərbaycan BMT-nin prinsip və normalarının reallaşdırılmamasından, Ermənistanın davamlı işğalından əziyyət çəkirdi. Bu gün isə Azərbaycan BMT tərəfindən müəyyənləşdirilən hədəf və missiyaların yerinə yetirilməsinə, xüsusilə də sülh və təhlükəsizliyə töhfə verir", - deyə Hikmət Hacıyev qeyd edib.

"Bu gün və gələcəkdə bizim əsas prinsipimiz beynəlxalq hüququn prinsiplərini izləmək, onu müdafiə etmək olacaq", - deyən Prezidentin köməkçisi əlavə edib ki, hazırda Azərbaycan bu prinsipləri rəhbər tutaraq beynəlxalq sülhə və təhlükəsizliyə töhfəsini verir. Ölkəmiz həmçinin çoxtərəfli yanaşmanı seçib, BMT-nin müxtəlif institutları ilə sıx əməkdaşlıq edir. Təhlükəsizlik sahəsində Azərbaycan sıx əməkdaşlığı davam etdirir və praktiki addımlar ataraq prosesə öz töhfələrini verir. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının mandatı əsasında dünyanın müxtəlif nöqtələrində sülhməramlı missiyaya dəstək verir. Kosovo, Əfqanıstan və digər ölkələrdə Azərbaycanın sülhməramlı missiyası fəaliyyət göstərib. Bu gün Sudanda Azərbaycan sülhməramlıları var.

H.Hacıyev eyni zamanda diqqətə çatdırıb ki, bu gün Azərbaycan orta inkişaf edən ölkə statusundadır və onu daha perspektivli gələcək gözləyir. "Biz bu prosesdə BMT və onun institutlarının verdiyi töhfəni yüksək qiymətləndiririk. BMT Azərbaycanı müstəqillik qazandığı ilk illərdən dəstəkləyib", - deyən Prezidentin köməkçisi vurğulayıb ki, bu gün Azərbaycan öz gündəliyində yeni səhifə açıb, bu, azad olunmuş ərazilərin yenidən qurulması ilə bağlıdır. Bu prosesdə də BMT-ni Azərbaycanın tərəfdaşı kimi görürük. BMT nümayəndələri ölkəmizə səfərləri zamanı artıq ilkin təkliflərini və tövsiyələrini Azərbaycan hökuməti ilə bölüşüblər.

"BMT institutları həmçinin minalardan təmizlənmə sahəsində Azərbaycanla sıx əməkdaşlıq edir. Bu problem bizim inkişaf gündəliyimizdə əsas maneələrdən biridir", - deyə Hikmət Hacıyev diqqətə çatdırıb.

Sonra çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, ötən il Azərbaycan dünya ölkələrinə 30 milyon ABŞ dolları dəyərində humanitar yardım göstərib. Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan pandemiya dövründə 80-dən çox ölkəyə humanitar dəstək verib, həmçinin 5 ölkəni 2 milyon dollar dəyərində peyvəndlə təmin edib.

Nazir qeyd edib ki, müharibə başa çatandan dərhal sonra Azərbaycan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti, yenidənqurma işlərinə başlayıb.

"İşğal dövründə yerləyeksan edilmiş bu ərazilərin yenidən qurulması, keçmiş məcburi köçkünlərin ləyaqətli və təhlükəsiz şəkildə öz yurdlarına geri qayıtması, bu ərazilərdə Azərbaycanın erməniəsilli vətəndaşlarının siyasi, iqtisadi və digər sahələrə inteqrasiyası və bərabərhüquqlu vətəndaş olması əsas prioritetlərindəndir. Azad edilmiş torpaqlarda reabilitasiyaya mane olan əsas məqam bu ərazilərin minalarla çirkləndirilməsidir. Bu, məcburi köçkünlərin təhlükəsiz şəkildə qayıtmasına və sürətli yenidənqurmaya əngəl törədir. BMT institutlarının təmsilçilərinin bu regionlara səfəri və baş verənləri öz gözləri ilə görməsi yaxşı olardı. Ümid edirik ki, bu missiyalar gördüklərini öz hesabatlarında əhatəli şəkildə təqdim edəcəklər və konkret təkliflər verəcəklər. Təbii ki, bu hesabatlarda Azərbaycan hökumətinin qısa zamanda gördüyü işlər də kənarda qalmamalıdır", - deyə nazir əlavə edib.

BMT-nin Azərbaycandakı rezident - əlaqələndiricisi Vladanka Andreyeva çıxışında vurğulayıb ki, BMT-nin təsisatları işğaldan azad edilmiş ərazilərin bərpası və minalardan təmizlənməsi işlərində Azərbaycana kömək göstərəcək. "1992-ci il martın 2-də Azərbaycan BMT-yə üzv oldu və bu illər ərzində biz əməkdaşlığımızı gücləndirməyə çalışırıq. Biz Bakıda ilk dəfə ofisimizi açanda münaqişədən əziyyət çəkən qaçqınlara və məcburi köçkünlərə yardım etmişik. 2021-ci il martın 1-də BMT ilə Azərbaycan arasında növbəti beş il üçün əməkdaşlığın əsas istiqamətlərini əks etdirən saziş imzalanıb. Bunlar gender bərabərliyi, ətraf mühit, inklüzivlik və sair məsələlərlə bağlıdır", - deyə rezident - əlaqələndirici qeyd edib.

Vladanka Andreyeva həmçinin Azərbaycanın Qoşulmama Hərəkatındakı rolunu və bu təşkilat çərçivəsində pandemiya ilə mübarizədə ölkəmizin səylərini yüksək qiymətləndirib.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev isə çıxışında deyib ki, ətraf mühitin mühafizəsi həmişə ölkəmizin əsas vəzifələrindən biri olub. Bu baxımdan "yaşıl inkişaf" və "yaşıl enerji" məsələləri prioritetlərdir.

Nazir vurğulayıb ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji"ni inkişaf etdirmək niyyətindədir və bu sahədə əsas diqqət əhalinin təmiz içməli su ilə təminatına yönəlib.

Muxtar Babayev Oxçuçayın çirkləndirilməsindən narahatlığını bildirib və qeyd edib ki, bu, bütün regionun ekosistemi üçün böyük təhlükə yaradır.

Nazir onu da vurğulayıb ki, Azərbaycan üçün daha bir prioritet bərpaolunan enerji mənbələrinin inkişafı, eləcə də "xalis sıfır emissiya" zonasının yaradılmasıdır. "Azad edilmiş ərazilərin bərpası üçün beynəlxalq təşkilatların dəstəyi vacibdir", - deyə M.Babayev əlavə edib.

Çıxışlardan sonra Azərbaycan-BMT əlaqələrinin 30 illiyi ilə bağlı poçt markasının təqdimatı olub.

Toplantı panel iclasları ilə davam edib.

Qeyd edək ki, Şuşa toplantısında əsas məqsəd Azərbaycan-BMT tərəfdaşlığında Davamlı İnkişaf Məqsədləri istiqamətində qət edilmiş yolun nəzərdən keçirilməsi üçün əlverişli platforma yaratmaq, postpandemiya və postmünaqişə reallıqlarında Azərbaycanın yeni prioritetlərini və imkanlarını müzakirə etmək olub.

Çoxşaxəli əməkdaşlığı özündə ehtiva edən Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantının məhz Şuşada keçirilməsi xüsusi rəmzi məna daşıyır. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, hazırda bölgənin bərpa-quruculuq, tərəqqi, qələbə simvoludur.

Xatırladaq ki, 30 il əvvəl - 1992-ci il martın 2-də Azərbaycan Respublikası BMT ailəsinin bərabərhüquqlu üzvünə çevrilib, bununla da beynəlxalq ictimaiyyətdə layiqli təmsil olunmaq imkanı qazanıb. Ötən dövr ərzində Azərbaycan-BMT tərəfdaşlığı yüksələn xətt üzrə inkişaf edib. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan BMT platformalarında irəli sürdüyü qlobal təşəbbüsləri ilə fərqlənən və böyük dəstək qazanan qabaqcıl ölkələrdən biridir.

Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə də xüsusi önəm verir. Azərbaycan dünyada 2030-cu il gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlətdir. Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72,4 xal toplayan Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutub. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin davamlı inkişafı sahələrində əldə etdiyi tərəqqi ayrıca vurğulanıb.

Sülh və davamlı inkişaf bir-biri ilə sıx bağlıdır və bir-birini gücləndirir. 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyində BMT-yə üzv dövlətlər inkişaf üçün sülhün vacibliyini yekdilliklə qəbul edib. Hazırda Azərbaycan münaqişədən zərər çəkmiş ərazilərində əsaslı yenidənqurma və bərpa işləri aparır, ən qabaqcıl standartları, alətləri və texnologiyaları tətbiq etməklə fəaliyyətini ardıcıl şəkildə genişləndirir və sürətləndirir. Davamlı inkişaf prinsiplərini rəhbər tutaraq azad olunmuş ərazilərdəki dirçəliş prosesi ölkənin Davamlı İnkişaf Məqsədlərinə daha da yaxınlaşmasını təmin etmək baxımından Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır.

Bu baxımdan Azərbaycanın COVID-19 pandemiyasının nəzarətdə saxlanılması üçün vaxtında gördüyü təsirli və adekvat tədbirlər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan pandemiyaya, "peyvənd millətçiliyi"nə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində də mühüm qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının xüsusi sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunələridir. Həmrəylik əlaməti olaraq koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə yaxın ölkəyə maliyyə və humanitar yardımı göstərib. Azərbaycan həmçinin qlobal tədbirlərlə bağlı konkret tövsiyələr hazırlaya biləcək BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksəksəviyyəli panelinin təsis edilməsi təşəbbüsü ilə çıxış edib. Bundan başqa, Azərbaycan Qoşulmama Hərəkatına rəhbərlik edən ölkə kimi postpandemiya dövrünün müzakirəsi üçün Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti yüksəksəviyyəli iclasının təşkil edilməsi üzərində çalışır.

## Şuşa şəhəri diplomatik mərkəz rolunda çıxış edir

"Azərbaycan ilə BMT arasındakı münasibətlərin 30 illiyi, BMT-Azərbaycan tərəfdaşlığı ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərində qeyd edilir. Azərbaycan 1992-ci ilin martında BMT-yə üzv olub və 2 aydan sonra Şuşa Ermənistan tərəfindən işğal olunub. Bu dövr ərzində işğal altında olan Şuşa şəhəri dağıdılıb, viran edilib."



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib: "Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə nəticəsində digər şəhərlərimiz, digər ərazilərimiz kimi Şuşa da azad edildi. Bu gün Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla bərabər, qarşıdan gələn dövr ərzində BMT-Azərbaycan münasibətlərinin müzakirə olunduğu diplomatik mərkəz rolunda çıxış edir. Bunun böyük siyasi, diplomatik, eyni zamanda rəmzi mənası var".

## Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinin Şuşada qeyd edilməsi rəmzi məna daşıyır

*"Bu il biz Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyini qeyd edirik. Artıq bir müddətdir bununla bağlı silsilə tədbirlər keçirilir. Bu gün Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində belə bir toplantının keçirilməsi rəmzi məna daşıyır".*

AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşada Azərbaycan-BMT münasibətlərinin 30 illiyinə həsr olunmuş tədbirdə iştirak edən xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə müsahibəsində söyləyib.

Nazir qeyd edib ki, Azərbaycan BMT tərəfindən elan edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) böyük önəm verir və DİM-lər üzrə müxtəlif sahələrdə bütün dünya qarşısında duran mövzularla bağlı prioritetlərini müəyyənləşdirir.

Ölkəmiz bu istiqamətlərdə inkişaf etmək üçün böyük və sistemli işlər həyata keçirir. Azərbaycan həm postmünaqişə dövrünə aid olan, həm də postpandemiya dövründə dünya qarşısında dayanan çağırışları BMT kontekstində müzakirə etmək məqsədilə bu gün Şuşa şəhərində xüsusi toplantı təşkil edib. Burada həm Azərbaycanın müxtəlif dövlət qurumlarının rəhbərləri, nümayəndələri, həm də BMT-nin müxtəlif agentliklərinin rəhbərləri iştirak edirlər. Hesab edirik ki, bu tədbir çox önəmli və vacib mövzuların müzakirəsi baxımından mühüm platforma kimi Azərbaycanla BMT arasında münasibətlər üçün faydalı olacaq.

* * *

*"Ötən il Azərbaycan dünya ölkələrinə 30 milyon ABŞ dolları dəyərində humanitar yardım göstərib. Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan pandemiya dövründə 80-dən çox ölkəyə humanitar dəstək verib, həmçinin 5 ölkəni 2 milyon dollar dəyərində peyvəndlə təmin edib".*



AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşada Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantıda çıxışı zamanı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib.

Nazir qeyd edib ki, müharibə başa çatandan dərhal sonra Azərbaycan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti, yenidənqurma işlərinə başlayıb. "İşğal dövründə yerləyeksan edilmiş bu ərazilərin yenidən qurulması, keçmiş məcburi köçkünlərin ləyaqətli və təhlükəsiz şəkildə öz yurdlarına geri qayıtması, bu ərazilərdə Azərbaycanın erməniəsilli vətəndaşlarının siyasi, iqtisadi və digər sahələrə inteqrasiyası və bərabərhüquqlu vətəndaş olması əsas prioritetlərindəndir. Azad edilmiş torpaqlarda reabilitasiyaya mane olan əsas məqam bu ərazilərin minalarla çirkləndirilməsidir. Bu, məcburi köçkünlərin təhlükəsiz şəkildə qayıtmasına və sürətli yenidənqurmaya əngəl törədir. BMT institutlarının təmsilçilərinin bu regionlara səfəri və baş verənləri öz gözləri ilə görməsi yaxşı olardı. Ümid edirik ki, bu missiyalar gördüklərini öz hesabatlarında əhatəli şəkildə təqdim edəcək və konkret təkliflər verəcəklər. Təbii ki, bu hesabatlarda Azərbaycan hökumətinin qısa zamanda gördüyü işlər də kənarda qalmamalıdır", - deyə nazir əlavə edib.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası olub





Martın 18-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Auditorlar Palatasının sədri Vahid Novruzov, YAP Təftiş Komissiyasının üzvləri və partiyanın yerli təşkilatlarının sədrləri də iştirak ediblər.

İclasın müzakirəsinə "Yeni Azərbaycan Partiyasının 2021-ci il üzrə maliyyə hesabatları" və "Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və yerli təşkilat aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən uçot siyasəti" sənədinin təsdiq edilməsi məsələləri daxil edilib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının 2021-ci il üzrə maliyyə hesabatlarını müstəqil auditor rəyi ilə birlikdə iclas iştirakçılarına təqdim edib.

İclasın gündəliyinin ikinci məsələsi olan "Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və yerli təşkilat aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən uçot siyasəti" sənədini təqdim edən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu sənəd siyasi partiyaların fəaliyyətini tənzimləyən qanunvericilik və bir sıra normativ-hüquqi sənədlər əsasında hazırlanıb və partiyada vahid uçot sisteminin yaradılmasını nəzərdə tutur.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov sənədin mahiyyəti haqqında ətraflı məlumat verib.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Auditorlar Palatasının sədri Vahid Novruzov sənədə dair müsbət rəyini bildirərək qeyd ediblər ki, bu sənəd Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi şəffaflıq strategiyasına uyğundur.

Daha sonra YAP İdarə Heyətinin üzvləri Bahar Muradova, Hikmət Məmmədov, Rəşad Mahmudov, Ramiz Hüseynov və Elmar Qasımov çıxış edərək sənədin əhəmiyyətini vurğulayıblar.

Müzakirələrdən sonra hər iki sənəd təsdiq olunub.

İclasa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim ediləcəyini bildirib, iclas iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib.

# Fransa Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması səylərini dəstəkləyir

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan İv Lö Drian arasında telefon danışığı olub.



XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər regiondakı vəziyyəti, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər. Danışıq zamanı nazirlər Azərbaycan tərəfindən təqdim edilmiş beş baza prinsipinə toxunublar. Jan İv Lö Drian Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması səylərinə dəstəyini ifadə edib.

Tərəflər həmçinin Ukrayna ətrafındakı mövcud vəziyyətə dair fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı nazirlər ikitərəfli gündəliyin aktual mövzuları və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycanla Koreya arasında siyasi, iqtisadi, mədəni, habelə humanitar sahələrdə əməkdaşlıq genişlənib

Martın 23-də Azərbaycan ilə Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Koreya Respublikasının xarici işlər naziri Chung Eui Yong arasında məktub mübadiləsi həyata keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov məktubunda iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının müstəqillik illərimizdə uğurla inkişaf edən ikitərəfli əlaqələrin əsasının qoyulmasına şərait yaratdığını bildirib. Hazırda iki ölkə arasında siyasi, iqtisadi, mədəni, habelə humanitar sahələrdə əməkdaşlığın genişləndiyini qeyd edən nazir həmçinin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığın mövcud olduğunu deyib. Ceyhun Bayramov bir çox Koreya şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən infrastruktur və tikinti layihələrində iştirak etdiyini diqqətə çatdırıb. Eyni zamanda 44 günlük Vətən müharibəsindən sonra bir sıra Koreya şirkətlərinin işğaldan azad olunmuş ərazilərin bərpa və quruculuq prosesində iştirak üçün dəvət edilməsinin ölkələrimiz arasında qarşılıqlı etimad və anlaşmanın təzahürü olduğunu diqqətə çatdırıb.

Nazir Chung Eui Yong öz növbəsində son 30 ildə ölkələrimiz arasında qarşılıqlı anlaşma və dərin hörmət prinsipləri əsasında qurulmuş ikitərəfli münasibətlərin siyasi, iqtisadi və mədəni və bütün digər sahələrdə inkişafının davamlı olduğunu qeyd edib. Nazir növbəti illərdə də Azərbaycanla çalışaraq iki ölkə arasında tərəfdaşlığı daha da inkişaf etdirməklə əlaqələrimizi şaxələndirəcəyimizə ümidvar olduğunu bildirib.

Nazirlər səmimi təbriklərini çatdırıb və iki dost xalqa sülh, əmin-amanlıq və rifah arzu ediblər.

# Onlayn görüş

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Beynəlxalq Həmkarlar İttifaqı Konfederasiyasının (BHİK) və Pan Avropa Regional Şurasının (PARŞ) vitse-prezidenti Səttar Möhbalıyevin PARŞ-nin və Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luka Visentini ilə onlayn görüş keçirilib.

Görüşdə Avropada həmkarlar ittifaqlarının fəaliyyəti, görülən işlər, beynəlxalq və regional həmkarlar ittifaqı təşkilatlarının qərar və tövsiyələri, gələcək perspektivlər müzakirə olunub.

Səttar Möhbalıyev Azərbaycan həmkarlar ittifaqlarının bu ildə iş planı, qarşıda duran vəzifələr, həyata keçirilməsi nəzərdə tutulan layihələr, həmçinin görülmüş işlər barədə danışıb.




L.Visentini Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətini yüksək qiymətləndirib, gələcək işlərində uğurlar arzulayıb. Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Son iki ayda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumlarında 307,5 mindən çox vətəndaş qəbul edilib

2022-ci ilin yanvar-fevral aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumları üzrə 307 min 544 vətəndaş qəbul edilib. Onlardan 9 min 200-nün nazirliyin və qurumların rəhbər vəzifəli şəxsləri tərəfindən qəbulu həyata keçirilib.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında bildirilib.

Kollegiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qeyd edib ki, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən aparılan sosial islahatların əsas məqsədi vətəndaş rifahının və məmnunluğunun təminatıdır. Bu məqsədlə geniş miqyasda tədbirlər həyata keçirilir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, kollegiya iclasında qeyd edilib ki, sosial islahatlar ardıcıl xarakter almaqla, sosial ödənişlərin mütəmadi artırılması təmin olunur. 2022-ci ilin əvvəlindən ölkəmizdə yeni sosial islahat paketi kimi, əməkhaqqı, pensiya və s. sosial ödənişlər növbəti dəfə artırılıb. 3,4 milyon şəxsi əhatə edən həmin artımlar üçün illik əlavə olaraq 2,1 milyard manat ayrılıb.

S.Babayev vurğulayıb ki, vətəndaşlara xidmətlərin keyfiyyətinin artırılması üçün mühüm islahatlar həyata keçirilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, tam şəffaf və müasir, vətəndaş məmnunluğuna uyğun qurulmasına imkan verib. 2019-cu ilin may ayından bəri DOST Agentliyi və bundan sonra beş DOST mərkəzi açılıb, paytaxtın bütün rayonları və Abşeron rayonu DOST xidmətləri ilə əhatə olunub. Ötən il DOST mərkəzlərində 410 min vətəndaşa xidmət göstərilib.



Qeyd olunub ki, Azərbaycanın DOST təcrübəsindən faydalanmaq istəyən ölkələrin də sayı artmaqda davam edir. Bu gün bir sıra ölkələrlə həm DOST konsepsiyası, həm də nazirliyin fəaliyyət sahələrində geniş şəkildə tətbiq olunan innovativ yeniliklərlə bağlı fəal təcrübə mübadilələri aparılır.

Ümumilikdə beynəlxalq əməkdaşlıq müstəvisində icra olunan layihələrin və əməkdaşlıq istiqamətlərinin sayı da 2018-ci ilə nisbətən iki dəfəyə qədər artaraq 2021-ci ildə 38-ə çatıb.

Bu gün nazirlik 30-a yaxın beynəlxalq təşkilat və 30-dan çox ölkə ilə fəal əməkdaşlıq həyata keçirir. Ötən il bir sıra ölkələrlə (Serbiya, Səudiyyə Ərəbistanı Krallığı və s.) müvafiq fəaliyyət sahələrində əməkdaşlığa dair sənədlər imzalanıb. Bu il də müxtəlif ölkələrin müvafiq qurumları ilə yeni əməkdaşlıq sənədlərinin imzalanması nəzərdə tutulur.

İclasda vətəndaşların qəbulu və müraciətlərinə baxılması, beynəlxalq əlaqələr, daxili nəzarət və audit, kadr məsələləri, sənədlərlə və vətəndaşların müraciətləri ilə iş, ictimaiyyətlə əlaqələr və s. sahələrdə görülmüş işlər və qarşıda duran hədəflər, doğulanlar arasında cins nisbətinin pozulmasının aradan qaldırılması sahəsində təşviqata dair təkliflər müzakirə olunub. Həmçinin 2021-ci ildə təsdiq edilmiş aktual peşə və ixtisasların siyahısına yenidən baxılaraq, onlara əlavə və dəyişikliklərin edilməsi qərara alınıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, martın 18-də Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Quba rayonunda Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib.

Ali Məhkəmənin Mətbuat xidmətindən bildiriblər ki, qəbuldan öncə Quba rayonunda Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək, önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram ifadə olunub.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib. Məhkəmələrin fəaliyyəti ilə bağlı müraciətlərə baxılaraq, qaldırılan bəzi məsələlərə yerində müvafiq izah verilib. Digər müraciətlər üzrə Ali Məhkəmə Aparatının qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması ilə bağlı yerlərdə qəbulların keçirilməsinə görə Azərbaycan Prezidentinə dərin minnətdarlıqlarını ifadə ediblər.

* * *

Martın 18-də energetika naziri Pərviz Şahbazov Şirvan şəhərində vətəndaşları qəbul edib.

Nazirlikdən bildirilib ki, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Şirvan filialının inzibati binasında qurumun aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar elektrik enerjisi təchizatı, enerjidən istifadəyə görə yaranmış borc və cərimələr, işlə təminat və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar. Vətəndaşların müraciətləri dinlənilib və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

Qəbul zamanı Şirvan, Salyan, Masallı şəhərləri və Neftçala rayonundan olan vətəndaşların müraciətlərinə baxılıb.

***AZƏRTAC***

# Qalib xalqın nümayəndələri

*Əvvəli 1-ci səh.*

Respublikamızda 50-yə yaxın olimpiya idman kompleksinin fəaliyyət göstərməsi, idmanın ayrı-ayrı növləri üzrə müasir komplekslərin yaradılması bu siyasətin uğurla həyata keçirilməsindən xəbər verir.

Bu qayğını yüksək dəyərləndirən gənclərimiz üzərlərinə düşən vəzifələri layiqincə doğruldurlar. İndiyədək Azərbaycan idmançıları dəfələrlə beynəlxalq yarışların qalibləri olublar. Onlar üçrəngli bayrağımızı ucaldıb, himnimizi səsləndiriblər. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Məhz idmançılarımızın qələbələri nəticəsində Azərbaycan dünyada idman ölkəsi, olimpiya hərəkatının inkişaf etdiyi dövlət kimi tanınır.

Dövlət tərəfindən göstərilən diqqət idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Bütün bunlar ali diqqətin və qayğının təcəssümü, Azərbaycanda həyata keçirilən idman siyasətinin, həmçinin idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

## Vətənpərvər gənclik

Azərbaycanda gənclərlə bağlı yürüdülən dövlət siyasətinin prioritet məqsədlərindən biri idmanın inkişaf etdirilməsi ilə yanaşı, böyüməkdə olan nəslin vətərpərvər ruhda tərbiyəsi, milli dövlətçilik ruhunda formalaşmasıdır. İdmançılarla görüşdə mühüm məsələlərə toxunan Prezident İlham Əliyev idmanın gənclərin vətənpərvərlik hisslərinin artırılmasındakı rolundan da danışdı. Qeyd edildi ki, idman bu istiqamətdə ən mühüm sahələrdən biri hesab olunur. "Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bizim, əlbəttə ki, güclü ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir", - deyə Prezident İlham Əliyev güləşçilərlə görüşdə bildirdi.

Bəli, Azərbaycan gənclərinin vətənpərvər ruhda yetişmələri 44 günlük müharibədə torpaqlarımızın azad edilməsində də öz sözünü dedi. Bu savaşda qazanılan parlaq hərbi Zəfərin təməlində dayanan əsas amillərdən biri Azərbaycan gənclərinin vətənə, torpağa bağlılığı oldu. Müharibənin ilk günündən gənclərimiz silaha sarılaraq torpaqlarımızın azadlığı uğrunda müqəddəs savaşa qalxdılar və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər sevincini xalqımıza yaşatdılar.

## Həm idmançılarımız, həm də digər gənclərimiz beynəlxalq tədbirlərdə müzəffər Azərbaycan dövlətinin təmsilçiləri kimi iştirak edirlər

Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən, bu yolda müqəddəs şəhidlik məqamına ucalan qəhrəmanlarımızın böyük hissəsi məhz gənclərimiz idi. Həmin gənclər heç vaxt Qarabağı görməmişdilər. Onlar Birinci Qarabağ müharibəsinin şahidi deyildilər. Lakin ölkəmizdə həyata keçirilən gənclər siyasəti onları vətənpərvərlik ruhunda formalaşdırmışdı. Bu baxımdan Vətən müharibəsi Azərbaycan gəncliyinin vətənpərvərliyinin, ən yüksək milli keyfiyyətlərin daşıyıcısı olduğunu təcəssüm etdirdi.

## İlham ƏLİYEV: "Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz"

Müstəqilliyimizin şərəf səhifəsinə, tariximizin qəhrəmanlıq salnaməsinə çevrilən İkinci Qarabağ müharibəsi işğal altında olan torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Xalqımız bu müharibədə yumruq kimi bir oldu, vətən torpaqları uğunda ayağa qalxdı. Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, bu müharibə xalqımızın əyilməz ruhunu göstərdi.

44 gün ərzində dünya Azərbaycanı yenidən tanıdı, onun rəhbərinin yenilməzliyinə, siyasi müdrikliyinə şahidlik etdi. Vətən müharibəsi məğlubiyyət damğasını üzərimizdən götürdü, bizi qalib xalq etdi.

Güləşçilərlə görüşdə Prezident İlham Əliyev bu məsələnin də üzərində dayandı və onların qalib gəlmiş müzəffər xalqı təmsil etdiklərini xüsusi vurğuladı: "Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz. Siz qalib gəlmiş müzəffər xalqı təmsil edirsiniz. Əminəm ki, o arenaya çıxanda sizin ürəyinizdə mütləq bu duyğular olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq, o cümlədən İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar".

Həqiqətən, qalib dövlətin təmsilçisi kimi çıxış etmək başqa bir hissdir, başqa bir duyğudur. Qalib dövlətin təmsilçisi olmaq həm də böyük ruh yüksəkliyi, uğurlara aparan yolda mənəvi-psixoloji dəstək və üstünlük deməkdir. Vətən müharibəsindəki tarixi Zəfərlə xalqımız bunları layiqincə təmin etdi.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Qisasımızı döyüş meydanında aldıq

*Əvvəli 1-ci səh.*

Azərbaycan əsgəri düşmənin yalnız hərbi obyektlərini nişan aldığı halda, erməni silahlı qüvvələri həm cəbhəboyu rayon və kəndlərimizi, həm də cəbhə zonasından uzaq məsafədə yerləşən şəhərlərimizi ağır artilleriya və raket atəşinə tutub, mülki əhalini hədəf aldı. Mənfur düşmən müharibə boyu qadağan olunmuş silahlardan istifadə etdi.

İşğalçı Ermənistan bu əməlləri ilə sivil dəyərlərdən kənar, mülki insanlara və azyaşlı uşaqlara qarşı xain hücumlar törədən terrorçu ölkə olduğunu növbəti dəfə təsdiq etdi, faşizm mahiyyətini bir daha sübuta yetirdi.

44 günlük müharibə dövründə Gəncədə törətdikləri soyqırımı, Bərdədə, Tərtərdə mülki əhalini hədəfə almaları, bütöv ailələrin həyatlarına son qoymaları, körpə uşaqların, qocaların öldürülməsi ermənilərin insanlıq suçu kimi tarixə qara izlərlə həkk olunub. Faşist xislətli ermənilər bu vəhşiliklərini bütün dünyanın gözü qarşısında törədib və qaniçənliklərini bir daha təkzibolunmaz şəkildə gözlər önünə səriblər. Hətta illərdir erməni vandallığını, vəhşiliyini görməzdən gələn ermənipərəst dairələr də bu mənfur tayfanın 44 gün ərzində törətdikləri cinayətləri örtbasdır etməkdə aciz qalıblar. Müharibədən sonra azad olunan torpaqlarda üzə çıxan erməni vəhşiliyi, onların insanlara, daşa, torpağa, dini, mədəni dəyərlərə qənim kəsilmələri isə bir başqa yöndən iyrənc simalarını ortaya qoyub.

## Azərbaycanın hədəfi yalnız işğalçı ordu idi

44 günlük müharibə boyu Azərbaycan Ordusu beynəlxalq humanitar hüquqa əməl etdi, onun hədəfi yalnız Ermənistanın işğalçı ordusuna məxsus legitim hərbi hədəflər idi. Onu da vurğulayaq ki, müharibə getdiyi ərəfədə Azərbaycan humanitar dəhlizlərin açılması, beynəlxalq humanitar hüququn norma və prinsiplərinin tətbiq edilməsinə hazır olduğunu bildirərək bu barədə erməni əhalisinə müraciət etdi. Müraciət həyatını qurtarmaq məqsədilə könüllü qaydada təslim olmaq istəyən düşmənin hərbi qulluqçularına da şamil edildi. Hətta qarşı tərəfdəki mülki insanlara müraciət olunaraq hərbi obyektlərdən kənarda olmaları tövsiyə edildi. O da xüsusilə qeyd olunmalı faktdır ki, Azərbaycan Ordusu əks-hücum əməliyyatı zamanı qadağan olunmuş silah növlərindən də istifadə etmədi.

Prezident İlham Əliyevin sözügedən çıxışında da vurğuladığı kimi, bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb: "Məhz buna görə düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər".

Bəli, Azərbaycan müharibəni ləyaqətlə aparıb. Mülki əhaliyə qarşı vuruşmayıb, mülki əhalinin yerləşdiyi obyektləri hədəf seçməyib, qəddarlıqla məşğul olmayıb və düşməndən qisasını yalnız döyüş meydanında alıb.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təbrikdə Şeyxülislam xalqımızı qədim, mübarək Novruz bayram münasibətilə ürəkdən təbrik edib, Allah-taaladan səadət və rifah, xoş əhvali-ruhiyyə və bayram sevinci diləyib. Qeyd edib ki, Novruz Azərbaycan xalqının çoxəsrlik tarixində özəl yeri və milli önəmi olan bayramlarındandır. Min illər boyu qeyd edilən mübarək Novruz torpağın oyanışını, təbiətin yenilənməsini və bəşərin intibahını təcəssüm etdirib. Yaşadığımız hər an, varlığımız üçün Uca Yaradana həmd-səna edən xalqımız Novruzu Allahın böyük lütfü kimi dəyərləndirir. Novruz bayramı Ulu Yaradan tərəfindən xəlq olunmuşların ən alisi olan insanın ruhuna təbiətlə vəhdətdə təkamül, oyanış səadəti yaşadır.

Şeyxülislam təbrikində həmçinin bildirib: "Allaha çox şükürlər olsun, hər yeni Novruz bayramı dövlətimiz və millətimizin uğurlu inkişaf - Zəfər yolumuzun davamına, azad Qarabağa Böyük qayıdışımıza rəvac verir. Xalqımız firavan sabahının, dinc, sabit həyat və tərəqqisinin təminini dövlət başçısı, Prezident İlham Əliyevin qətiyyət və möhkəm iradə ilə yürütdüyü müzəffər dövlət siyasətində, müdrik islahatlarda, Qarabağda abad həyat quruculuğunda görür və bu uğurlu inkişaf yolunu ürəkdən dəstəkləyir. Dövlət rəhbərimizin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın milli-mənəvi dəyərlərimizə, İslami irsimizə, ümumbəşəri mədəniyyətə ehtiramlı münasibəti bu gün Qarabağda əsarətdən azad olunmuş dini-mənəvi irs abidələrimizin yenidən təməlinin qoyulması, bərpası sahəsində möhtəşəm quruculuq işlərində öz yüksək təzahürünü tapır. Mədəniyyət mərkəzimiz Şuşadan və azad Qarabağ məscidlərinin minarələrindən azan səslərinin ucalması tarixi, ilahi ədalətin bərpasını tərənnüm edir. Bu mübarək günləri, Cıdır düzündə bayram tonqallarının qalanmasını bizə, bütün xalqımıza yaşatdığına görə Uca Yaradana, qalib xalqımızın və qəhrəman ordumuzun müzəffər Liderinə sonsuz həmd-sənalar edirik! Bu əziz Novruz günlərində Vətən uğrunda şəhid olan qəhrəman övladlarımızı rəhmət dualarıyla yad etmək, ailələrinə, yaxınlarına başsağlığı vermək, qazilərimizə, yaralılarımıza Allah-taaladan şəfaət və səadət diləmək bizim vəfa borcumuzdur. Biz Qarabağda dalğalanan Azərbaycan bayrağı naminə canından keçən hər bir şəhidimizə Allahdan rəhmət diləyir, yaralılarımıza şəfalar arzulayırıq".

"Bu ilin təqviminə görə, Azərbaycanın üfüqi vaxtı ilə martın 20-si saat 19:33-də il pələng bürcü üzərində təhvil olacaq. İl təhvili günorta zöhr namazından sonraya təsadüf etdiyi üçün bu il bayram axşamı martın 20-də, mübarək Novruz bayramı isə martın 21-də qeyd olunacaq. Uca Yaradana həmd-səna, süfrələrə xeyir-bərəkət, nemətlərə şükür duaları ilə Novruza qədəm qoyan xalqımızı bir daha təbrik edir, hər ailəyə xoşbəxtlik, hər evə rifah və əmin-amanlıq arzulayıram. Allahdan diləyim budur ki, Öz Böyük Mərhəmət və Kəramətini xalqımızın üzərində bərqərar etsin, bütün ülvi arzu və xoş niyyətlərimizin gerçəkləşməsini xalqımıza qismət etsin.

Qoy Novruzun qədəmləri mübarək, xalqımız üçün xeyirlərə vəsilə olsun! Dualar edirik ki, Novruzda Yer üzünə təravət, yeni ab-hava, torpağa yeni həyat bəxş edən Uca Allah müharibələrin dayanmasına, dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına rəvac versin!", - deyə Şeyxülislam təbrikində bildirib.

# ADA Universitetində Bahar Gənclik Festivalı keçirilib

Martın 18-də ADA Universiteti Fondunun (Azərbaycan) və "Coca-Cola" şirkətinin birgə əməkdaşlığı çərçivəsində bu ali təhsil müəssisəsində VIII Bahar Gənclik Festivalı keçirilib.







AZƏRTAC xəbər verir ki, ADA Universitetinin ənənəvi yaz tədbirlərindən sayılan festivalda bahara həsr olunan sərgi, milli geyimlərimiz, Azərbaycan xalça məktəblərinin nümunələri, bayram mətbəxinin şirniyyatları nümayiş etdirilib.

Milli-mədəni dəyərlərimizi təbliğ edən festival yerli və xarici tələbələrin, ADA məktəblilərinin, universitetin müəllim və işçi heyətinin, həmçinin tərəfdaş qurumların nümayəndələrinin iştirakı ilə keçirilib. Festivala dəvət edilən şəhid övladlarına xüsusi hədiyyələr təqdim edilib.

Festival iştirakçılarını salamlayan ADA Universiteti Fondunun (Azərbaycan) Sponsorluq layihələri üzrə direktoru və "Təmiz ölkəm" layihəsinin rəhbəri Firuzə İsmayıl bildirib ki, pandemiya ilə əlaqədar ikiillik fasiləyə baxmayaraq, Bahar Gənclik Festivalı yenidən ADA icmasını bir araya gətirə bilib.

"Bahar təbiətin oyanışını əks etdirir. Təbiəti qorumaq isə hər birimizin borcudur. Elə bu səbəbdən də təbiəti qorumaq məqsədilə ADA Universiteti "Coca-Cola" şirkəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "ASAN Könüllüləri" Təşkilatı, ADA Universitetinin Fondu və "AzEkol" MMC-nin dəstəyi ilə "Təmiz ölkəm" ekoloji layihəsinin yeni mərhələsinə başlayaraq plastik tullantıların təkrar emalını həyata keçirir", - deyə F.İsmayıl əlavə edib.

Festival zamanı gənc müğənni Hiss və dicey Çina tərəfindən səsləndirilən musiqi ifaları, eləcə də "Səma" rəqs qrupunun şousu iştirakçıların zövqünü oxşayıb.

# Dövlət Məşğulluq Agentliyi minaaxtaran peşəsi üzrə hazırlıq kursu təşkil edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən minaaxtaran peşəsi üzrə hazrlıq kursu təşkil edilib.




Agentliyin Bakı Peşə Hazırlığı Mərkəzi ilə "Qaya Safety Solutions" MMC-nin əməkdaşlığı çərçivəsində  təşkil edilən kursa Tərtər, Ağdam və Bərdə rayonlarından xüsusi meyarlar əsasında seçim aparılmaqla 15 işsiz şəxs cəlb edilib.

Nəzəri biliklərin tədrisindən sonra müdavimlər Cəbrayıl rayonunda mina təmizləmə işlərinin aparıldığı sahələrdə təcrübə də keçəcəklər.

Tədris müddəti bitdikdən və imtahanları uğurla başa vurduqdan sonra həmin şəxslər işğaldan azad olunan məntəqələrdə ərazilərin minalardan təmizlənməsi sahəsi üzrə əmək fəaliyyətinə başlayacaqlar. Müdavimlərə tədris müddətində minimum əməkhaqqı məbləğində təqaüd də ödəniləcək.

# Müdafiə naziri Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Novruz bayramı münasibətilə ordumuzun şəxsi heyətini təbrik edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bayram münasibətilə şəxsi heyəti səmimi-qəlbdən təbrik edən general-polkovnik Zakir Həsənov möhkəm cansağlığı, çətin, eyni zamanda şərəfli və müqəddəs xidmətdə uğurlar arzulayıb.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində dövlət səviyyəsində qeyd edilən və xalqımızın ən əziz bayramı sayılan Novruz təbiətin oyanışından xəbər verir. Qədim zamanlardan müasir günümüzədək milli-mənəvi dəyərlərin qorunduğu Azərbaycanda Novruzun gəlişi tarixin ən sərt dönəmlərində belə özünəməxsus coşqu, sevinc, yüksək əhvali-ruhiyyə ilə qeyd edilib.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yürütdüyü uğurlu siyasət və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı böyük layihələr nəticəsində müstəqil Azərbaycan Respublikasında həmrəylik, xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatıb.

Bu gün iqtisadiyyatımızın fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələri daha da möhkəmlənib. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində nüfuzu daha da artan Azərbaycan dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub.

Bildirilib ki, 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun əsgər və zabitlərinin 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq və fədakarlıq nümunələri sayəsində azad edilərək ərazi bütövlüyümüz təmin olundu. Bu gün rəşadətli Azərbaycan Ordusu azad edilən ərazilərdə mövqelərini daha da möhkəmləndirərək həyata keçirilən bərpa-quruculuq işlərinə də layiqli töhfələrini verməkdədir. Hərbi anda sədaqətə, çətin və şərəfli hərbi xidmətdə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm.

"Azərbaycanın suverenliyi, müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən bütün şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi, Novruz bayramı ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Eyni zamanda onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha hər birinizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram", - deyə general-polkovnik Zakir Həsənovun təbrik müraciətində bildirilib.

# ABŞ rəsmiləri Azərbaycan, Türkiyə və Orta Asiya ölkələrinin birgə təşkil etdiyi Novruz tədbirində iştirak ediblər

Martın 17-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Türkmənistan səfirliklərinin birgə təşkilatçılığı, Meridian Beynəlxalq Mərkəzi (Meridian International Center) və Mərkəzi Asiya Məsələləri üzrə Oksus Cəmiyyətinin (Oxus Society) moderatorluğu ilə Novruz bayramına həsr edilmiş onlayn tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirə yüksəksəviyyəli qonaqlar qismində qatılan ABŞ-ın dövlət katibi Entoni Blinken, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) administratoru Samanta Pouer, ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin sədri Qreqori Miks, ABŞ Müdafiə Katibinin köməkçisinin müavini Rebekka Zimmerman Novruz bayramı ilə əlaqədar təbrik mesajlarını çatdırıblar.

Dövlət katibi Entoni Blinken çıxışı zamanı ABŞ Prezidenti Co Baydenin və Amerika xalqının adından bütün dünyada Novruz bayramını qeyd edən xalqları təbrik edib, baharı qarşılamaq üçün gözəl fürsət olan Novruzun keçmişi işıqlandırmaqla yanaşı, yeni fəsil və imkanlar üçün insanlara yeni nəfəs gətirdiyini bildirib. O, yeni fəslin gəlişi ilə dünyadakı bütün böyük və kiçik çətinliklərin aradan qalxacağına, yeni ilin sağlamlıq və sülhlə yadda qalacağına ümidini ifadə edib.

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) administratoru Samanta Pouer Novruz bayramını təşkil edən səfirliklərə təşəkkürünü bildirərək təbriklərini çatdırıb. O, qarşılaşdığımız çətin zamanlarda Novruzun ürəklərə istilik gətirərək insanları birlik, müstəqillik və azadlıq kimi birgə dəyərlərə səslədiyini qeyd edib.

ABŞ Müdafiə Katibinin köməkçisinin müavini Rebekka Zimmerman Müdafiə Katibi Lloyd Oustinin adından Novruz təbriklərini çatdırıb, bu il region ölkələri ilə diplomatik və müdafiə sahələrində münasibətlərin 30 illiyinin qeyd edilməsinə diqqət çəkib, regional əməkdaşlığın gücləndirilməsi, sülh və sabitliyin təşviqi istiqamətində göstərilən səyləri yüksək qiymətləndirib. O, 20 il ərzində ABŞ-ın Əfqanıstanda sülhyaratma missiyasına, hərbi əməliyyatlar zamanı Əfqanıstanın sabitliyinə dəstək verən Mərkəzi Asiya ölkələri və digər tərəfdaş türk dövlətlərinə təşəkkürünü bildirib. R.Zimmerman indi ədalət və sülh üçün birliyə əvvəlkindən daha çox ehtiyac olduğunu diqqətə çatdırıb.

ABŞ Konqresində Xarici İşlər Komitəsinin sədri Qreqori Miks baharın ilk günü hesab edilən Novruzun vahid məram və dəyərləri birləşdirdiyini, insanları sülh və həmrəyliyə səslədiyini vurğulayıb. O, Konqresdə Xarici İşlər Komitəsinin sədri qismində qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmək üçün birlik və tərəfdaşlığın gücləndirilməsində maraqlı olduqlarını bildirib.

Daha sonra Azərbaycan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan səfirləri, Qazaxıstan və Türkiyənin səfir müavinləri çıxış edərək Novruz bayramı ilə bağlı təbrik mesajlarını çatdırıblar.

Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim Novruz bayramının təbiətin, insanların, fikirlərin yenilənmə zamanı olduğunu bildirərək, ölkəmizdə bu dəyərin yüksək qiymətləndirildiyini qeyd edib. Səfir Prezident İlham Əliyevdən sitat gətirərək, Novruz bayramının Azərbaycan xalqının dünyagörüşü, gələcəyə nikbinliyi və milli birliyinin təcəssümü olduğunu vurğulayıb. O, Azərbaycan-ABŞ diplomatik münasibətlərinin 30-cu ildönümündə bu xüsusi bayramın qardaş dövlətlərlə birlikdə keçirilməsinin əhəmiyyətini qeyd edib, daha yaxşı gələcək üçün Novruz dəyərlərini təcəssüm etdirən əməkdaşlığın gücləndirəcəyinə əminliyini bildirib.

Tədbir zamanı ölkələrin tarixini, mədəniyyətini və ənənələrini əks etdirən Novruz bayramı münasibətilə hazırlanmış xüsusi videoçarxlar yayımlanıb. Azərbaycanlı tar ifaçısı, Əməkdar artist Vüsal İsgəndərzadə rəhbərlik etdiyi "Şur Trio" qrupu ilə birlikdə Azərbaycan musiqisinin gözəl nümunəsini ifa edib.

Novruz tədbiri ABŞ-da yaşayan çoxsaylı icma nümayəndələri, ABŞ rəsmiləri tərəfindən maraqla izlənilib. Tədbirdən sonra ABŞ-ın dövlət qurumlarına və rəsmi şəxslərinə tədbirin təşkilatçı ölkələri tərəfindən birgə hazırlanmış təamlar və bayram sovqatları göndərilib.

## VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Şəhid ailələri ilə görüş



Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev şəhid Kəlbəliyev Mirkazım Firuz oğlunun ailəsini Novruz bayramı ərəfəsində ziyarət edib.

M.Kəlbəliyev 44 günlük Vətən müharibəsində Suqovuşan uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin ailəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yeni mənzillə təmin edilib. Ailəyə sığorta ödənişi, maddi yardım verilib. Ailə üzvlərinə Prezidentin aylıq təqaüdü, ailə başçısını itirməyə görə aylıq pensiya, şəhidin iki uşağının hər birinə aylıq müavinət ödənilir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ailə ilə görüş zamanı şəhid M.Kəlbəliyevin həyat yolundan, Vətən müharibəsində şücaətlərindən bəhs olunub. Torpaqlarımızın azad olunması uğrunda döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının, həmçinin şəhid M.Kəlbəliyevin xatirəsinin həmişə ürəklərdə yaşayacağı vurğulanıb.

Şəhid ailəsinin sosial vəziyyəti öyrənilib. A.Əliyev ailənin bundan sonra da daim diqqət və qayğı ilə əhatə olunacağını bildirib.

* * *






Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli 44 günlük Vətən müharibəsində şəhid olmuş Budaqov Yusif Ramiq oğlunun ailəsini ziyarət edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, şəhidin ailəsi dövlət tərəfindən sosial dəstək tədbirləri ilə əhatə olunub. Ailə müvafiq sosial ödənişlər alır. Şəhidin anası Lətafət Budaqova Dövlət Məşğulluq Agentliyi tərəfindən ictimai işlə təmin edilib.

Y.Budaqov ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib və torpaqlarımızın düşmən əsarətindən azad edilməsi uğrunda haqq savaşında şəhid olub. Prezident İlham Əliyevin sərəncamları ilə o, "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

* * *



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İş Mərkəzinin direktor müavini Emil İsmayılov 44 günlük Vətən müharibəsində şəhid olmuş Zamanov Sənan Qahir oğlunun ailəsini ziyarət edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, şəhidin ailəsi, o cümlədən 3 uşağı dövlət tərəfindən sosial dəstək tədbirləri ilə əhatə olunub. Ailəyə müvafiq sosial ödənişlər edilir. DOST İş Mərkəzi də ailəni daim diqqət mərkəzində saxlayır.

Ailə ilə söhbət zamanı şəhidin keçdiyi şərəfli döyüş yolundan bəhs olunub. Onun xatirəsinin əbədi olaraq yaşayacağı vurğulanıb.

Həmçinin DOST İş Mərkəzinin fəaliyyəti çərçivəsində şəhid ailələri və qazilərə göstərilən dəstək tədbirləri qeyd olunub. 1000-dən çox şəhid ailəsi üzvünün və qazinin "İşsizin Dostu" proqramı çərçivəsində, habelə mərkəzin Aparatında işlə təmin edildiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, Talış kəndi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksələn S.Zamanov Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları və "Rəşadət" ordeni ilə təltif edilib.



* * *

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov Vətən müharibəsi şəhidi Rəşad Qiyas oğlu Zeynallının ailəsini ziyarət edib.

Şəhidin ailəsi nazirlik tərəfindən Binəqədi rayonu, Xocasən qəsəbəsindəki Yeni Yaşayış kompleksində 3 otaqlı mənzillə təmin olunub.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, V.Behbudov bildirib ki, tarixi torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi uğrunda döyüşlərdə canlarından keçən qəhrəman Vətən övladlarının, o cümlədən Rəşad Zeynallının xatirəsi əbədi olaraq qəlbimizdə yaşayacaq.

Agentliyin sədri şəhid ailələrinin, müharibə əlillərinin sosial müdafiəsi ilə bağlı görülən işlərdən danışarkən bildirib ki, şəhid Rəşad Zeynallının ailəsi də sosial dəstək tədbirləri ilə əhatə olunub və qarşıdakı dövrdə də həmin tədbirlər davam edəcək.

Onu da qeyd edək ki, Cəbrayıl və Qubadlı rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Rəşad Zeynallı Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

* * *

"YAŞAT" Fondu PAŞA Holding və "Bravo" marketlər şəbəkəsinin dəstəyi ilə şəhid ailələri və müharibə əlillərini Novruz bayramı münasibətilə təbrik edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, həmin məqsədlə 6800-dək Novruz sovqatı qutusu hazırlanıb və ailələrə təhvil verilib.

Qutulara ərzaq məhsulları, bayram azuqələri yerləşdirilib.

Martın 8-dən etibarən 3300-dən çox şəhidin valideynləri, həyat yoldaşları və övladları nəzərə alınmaqla 4031 evə və 2700-dən çox müharibə əlilinə Novruz sovqatı çatdırılıb.

"YAŞAT" Fondu mütəmadi olaraq şəhidlərimizin ailə üzvlərinin və müharibə əlillərinin müraciətlərini operativ şəkildə qiymətləndirir və onların müxtəlif ehtiyaclarının qarşılanması üzrə işləri davam etdirir.











# Ən islahatçı Prezident



*Əvvəli 1-ci səh.*

Ötən il Azərbaycanda, əsasən 3 istiqamətdə - işğaldan azad olunmuş ərazilərin bərpa-quruculuq prosesi, pandemiyanın iqtisadiyyatda yaratdığı fəsadların aradan qaldırılması, qlobal ərzaq qıtlığı və bahalaşmaya qarşı mübarizə ilə bağlı tədbirlər həyata keçirilib və xeyli uğurlar əldə edilib. 2021-ci ildə də İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf dinamikası davam edib. Rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması, dayanıqlı iqtisadi artımın sürətləndirilməsi, inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışının təmin edilməsi məqsədilə Prezident tərəfindən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncam imzalanıb. Sərəncamın icrasının təmin edilməsi və "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə Nazirlər Kabineti tərəfindən 5 Milli Prioriteti əhatə edən 10 alt işçi qrupu yaradılıb.

2021-ci ildə ölkədə ümumi daxili məhsul 5,6 faiz, sənaye istehsalı 5,2 faiz artb. O cümlədən artım tempi qeyri-neft sektoru üzrə 7,2 faiz, qeyri-neft sənayesi üzrə 18,9 faiz, kənd təsərrüfatı istehsalında 3,4 faiz təşkil edib.

Ötən dövrdə xarici ticarət dövriyyəsi təxminən 35,6 milyard dollara çatıb, müsbət ticarət saldosu 12,1 milyard dolları ötüb. Vergi və gömrük daxilolmaları üzrə yığımlar proqnozdan 1,7 milyard manatdan çox olub ki, bu vəsait də 2022-ci ilin dövlət büdcəsinin sosial yönümlü xərclərinin artımına yönəlib. Ölkənin strateji valyuta ehtiyatları 53 milyard dolları ötüb və xarici birbaşa dövlət borcunu 7 dəfədən çox üstələyir.

Ölkəmizin xarici ticarət əlaqələrində ötən il əldə edilmiş müsbət dinamika bu ilin ilk 2 ayında da davam edib. Bu ilin 2 ayında xarici ticarət dövriyyəsi 80,4 faiz artaraq 7,94 milyard dollar, ixrac 2,1 dəfə artaraq 5,97 milyard dollar, idxal isə 22,3 faiz artaraq 1,97 milyard dollar təşkil edib. Xarici ticarət saldosu 3,4 dəfə artaraq 4 milyard dollar olub.

İqtisadi artıma təsir edən mühüm amillərdən olan qeyri-neft-qaz sektoru üzrə əsas kapitala investisiya qoyuluşları ötən ilin müvafiq dövrünə nisbətən bu ilin iki ayında 12,1 faiz artıb. Ölkəmizdə dayanıqlı iqtisadi artıma yönələn tədbirlərin nəticəsi olaraq bu ilin iki ayında ÜDM əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,7 faiz artaraq 12 milyard 419,7 milyon manat olub. Sənaye potensialından səmərəli istifadə nəticəsində bu ilin yanvar-fevral aylarında ötən ilin eyni dövrü ilə müqayisədə sənaye məhsullarının istehsalı qeyri-neft-qaz sənayesində 20,8 faiz artıb.

## 3,4 milyon şəxsi əhatə edən sosial paket

Ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 455 milyon manat vəsait sərf edilib. Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən güzəştli kreditlərin 59 faizi aqrar sektora yönəldilib.

Aztəminatlı və sosial cəhətdən həssas kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ödənilən sosial ödənişlərin, o cümlədən əmək pensiyalarının, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub.

Prezident İlham Əliyevin tapşırığı əsasında reallaşdırılan sosial paket çərçivəsində 2022-ci ilin əvvəlindən ölkədə əməkhaqlarında növbəti artımlar edilib. Minimum aylıq əməkhaqqının 250 manatdan 300 manata çatdırılması ilə əlaqədar 800 min işçinin, o cümlədən maaşları vahid tarif cədvəli üzrə müəyyən olunanların əməkhaqqında orta hesabla 20 faiz artım baş verib. Minimum əməkhaqqı artımı üçün 2022-ci ilin dövlət büdcəsindən ayrılan əlavə illik vəsait 460 milyon manat təşkil edir.

Ümumilikdə, 2022-ci il üzrə əməkhaqqı, pensiya və digər sosial ödənişlərin artımı ilə bağlı sosial paket 3,4 milyon şəxsi əhatə edir. Bu artımlar üçün ayrılan illik əlavə vəsait 2,1 milyard manat təşkil edir.

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə, şəhid ailələrinə, həmçinin sosial cəhətdən həssas təbəqədən olan digər ailələrə 2021-ci ildə 3000-dən artıq mənzil təqdim edilib. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi üçün 2021-ci ilin dövlət büdcəsindən 354 milyon manat vəsait ayrılıb. 44 günlük Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə, xəsarət almış və əlil olmuş hərbi qulluqçulara bütövlükdə təqribən 55 milyon manatdan çox sığorta ödənişləri verilib. Eyni zamanda 2021-ci ildə də ölkəmizin müdafiə qabiliyyətinin, hərbi qüdrətinin artırılması istiqamətində əməli addımlar atılıb. Yeni silahlar, texnikalar alınıb, ordunun maddi-texniki bazası daha da möhkəmləndirilib.

2021-ci il ərzində regionların sosial-iqtisadi inkişafı üçün dövlət büdcəsinin investisiya xərclərindən 212 milyon manat, Prezidentin Ehtiyat Fondundan isə 122 milyon manat vəsait ayrılıb. Dövlət başçısının müvafiq fərmanına əsasən, iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib və ölkədə iqtisadi rayonların sayı 14-ə çatdırılıb.

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı ötən ilin dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsait demək olar ki, tam istifadə olunub. Ötən il istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, Zəfər yolu, hazırda inşası aparılan Zəngilan və Laçın beynəlxalq hava limanları və digər mühüm avtomobil, dəmir yol və sosial infrastruktur layihələri bölgənin inkişafına əhəmiyyətli təkan verir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin bilavasitə təşəbbüsü ilə gündəmə gələn Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli tədbirlər görülüb və hazırda bu iş davam etdirilməkdədir. Dövlət başçısının fərmanları ilə Ağdam Sənaye Parkı və Şərqi Zəngəzur iqtisadi rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb.

## Milli prioritetlər davamlı yüksəlişə böyük töhfələr verəcək

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" ölkənin davamlı yüksəlişinə böyük töhfələr verir və gələcəkdə də bu proses davam edəcək.

Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş yeni prioritetlər növbəti onillikdə iqtisadi artımın davamlı olmasını, milli iqtisadiyyatın daha da şaxələndirilməsini təmin etmək baxımından tamamilə yeni imkanlar açır.

Milli prioritetlərin reallaşması həm də milli birliyimizin daha bir təntənəsi kimi öz təzahürlərini tapacaq. Çünki bu gün Azərbaycanda mövcud olan milli həmrəylik, dövlət və xalq arasında qarşılıqlı etimad istənilən vəzifəni müvəffəqiyyətlə yerinə yetirməyə imkan yaradır.

Müstəqilliyinin bərpasından ötən 31 ildə heç vaxt indiki kimi güclü və istiqrarlı olmayan Azərbaycan dünya düzənində özünəməxsus yer tutan ölkələrədən biridir. Bunun yeganə səbəbi isə Prezident İlham Əliyevin tam müstəqil siyasət yürütməsi, mütərəqqi islahatları və ölkənin iqtisadi qüdrətinin getdikcə daha da güclənməsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bahalaşma İrəvanın iflasını sürətləndirir

## Yüksək inflyasiya Ermənistan iqtisadiyyatını çökdürüb

Zəif iqtisadiyyata malik olan Ermənistan böyük problemlərlə üzləşməkdədir. Bunun bir səbəbi isə son dövrlərdə dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərməsidir. Xüsusən də, Rusiyada rublun məzənnəsinin aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün böyük fəlakət sayılır.

Əvvəlki illərlə müqayisədə 2021-ci ildə Ermənistanda görünməmiş 7,2 faizlik yüksək inflyasiya, xüsusilə ərzaq məhsullarının qiymətlərində 11,5 faiz artım qeydə alınıb. İnflyasiya ilə yanaşı, insanların gəlirləri də mütənasib şəkildə artmayıb və bu, erməni əhalisini daha da yoxsullaşdırıb. Ötən ilin inflyasiyasını təkcə dünya bazarı deyil, həm də daxili amillər şərtləndirib. Ötən il Ermənistan hökuməti kənd təsərrüfatı istehsalı və emalı kreditləri üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması üçün milyardlarla dram ayırsa da, 2021-ci ildə kənd təsərrüfatı sektoru xeyli azalıb.

Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) dünya bazarında ərzaq qiymətləri indeksinin orta qiymətini açıqlayıb. 2022-ci ilin fevral ayında yanvar ayı ilə müqayisədə ərzaq məhsullarının qiymətləri 3,9 faiz artıb, ötən ilin fevralında inflyasiya səviyyəsi 20,7 faiz təşkil edib.

Ermənistan statistika komitəsinin açıqladığı məlumatlara görə, cari ilin yanvar-fevral aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə Ermənistanda malların qiymətləri 6,8 faiz artıb. Ərzaq qiymətlərinin 11,8 faiz artması xüsusilə ermənilər arasında narahatlıq doğurur. "İravnuk" qəzeti yazır ki, 2022-ci ilin fevral ayında əvvəlki ilin fevral ayına nisbətən çörəyin və dənli bitkilərin qiymətləri 10,1 faiz, ətin 9,6 faiz, kərə yağının 7,8 faiz, şəkərin 18,2 faiz, pendirin 17,2 faiz, tərəvəzin qiymətləri 31,1 faiz bahalaşıb: "Hələ Rusiya-Ukrayna münaqişəsindən əvvəl ərzaq almaq problemi daha da kəskinləşmişdi. 2022-ci il martın 15-dən avqustun 31-dək Rusiya Federasiyasından buğda, şəkər, yağ, qarğıdalı və digər zəruri məhsulların ixracına qadağa qoyulması planlaşdırılır. Odur ki, 2022-ci il Ermənistanın iqtisadiyyatı, yəni əhalisi üçün ciddi çağırışlar ili olacaq".

Bütün bunların fonunda əhalinin ödəmə qabiliyyəti daha çox azalıb. Hazırda əhali qrupu arasında istehlak olunan təbii qazın və elektrik enerjisinin dəyərinin ödənilməsində ciddi problemlər yaşanır. Son hesablamalara görə, əhalinin 90 faizi qaz və elektrik enerjisinin dəyərini ödəyə bilmir və onların borcu milyon dollarla ölçülür.

Son aylar Ermənistanda baş verən hadisələr əhalinin ölkəni tərk etməsini bir qədər də sürətləndirib. Ağır sosial-iqtisadi problemlərlə yanaşı, korrupsiya, insan haqlarının tapdanması da miqrasiyanı sürətləndirən əsas faktorlardan biridir. Erməni mediasının yazdığına görə, son vaxtlar Ermənistanda məmur özbaşınalığı dözülməz həddə çatıb. İndi ölkədə sıravi vətəndaşların deyil, ayrı-ayrı şirkət rəhbərlərinin, məmurların da tez-tez döyülməsi adi hal alıb. Belə vəziyyət qeyd olunduğu kimi, Ermənistanı daha çox sayda insanın tərk etməsinə gətirib çıxarır. Bütün bunlar isə Ermənistanı qarşıdakı günlərdə daha böyük problemin gözləməsi deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Naxçıvan iqtisadiyyatı: sürətli və tarazlı inkişaf nümunəsi

*Əvvəli 1-ci səh.*

Regional tarazlı inkişafın formalaşmasında mühüm amillərdən biri regionun iqtisadi strukturudur. Bu amil regionlarda gəlirlərin səviyyəsinə də təsir edən əsas amillərdən biridir. 2018-ci ildə regionlarda (Bakı şəhəri nəzərə alınmadan) ümumi mal (xidmət) istehsalında sənayenin xüsusi çəkisi 23,3, kənd təsərrüfatının payı 27,8 faiz təşkil etmişdir. Naxçıvan Muxtar Respublikasında isə bu göstərici sənaye üzrə 28,1, kənd təsərrüfatı üzrə 13,4 faiz olmuşdur. Meyar kimi qəbul edilən xidmət sektorunun payı 58,4 faizə çatmış və bu göstəriciyə görə Naxçıvan Muxtar Respublikasını inkişaf etmiş region kimi qiymətləndirmək mümkündür. Muxtar respublikada adambaşına sənaye məhsullarının istehsalı, məsələn, Gəncə-Qazax iqtisadi rayonu ilə müqayisədə 3,4, Quba-Xaçmaz iqtisadi rayonu ilə müqayisədə 7, Aran iqtisadi rayonu ilə müqayisədə 2,9 dəfə çoxdur.

Təbii sərvətlərlə zəngin olan Naxçıvan MR-də Duzdağ yatağının müasir texnika və texnologiya əsasında istismarı təşkil olunmuşdur. Belə ki, 2021-ci ilin ortalarında Duzdağda yeni şaxta istifadəyə verilmişdir. Yeni şaxtaya ağır texnikalar daxil olaraq xammalı şaxtadan çıxara bilir. Bununla da şaxtaçıların əməyi əhəmiyyətli dərəcədə yüngülləşmişdir. Duz üyüdüldükdən sonra paketlərdə bazarlara təqdim edilir. Naxçıvan duzunun ölkənin digər regionlarında satışını təmin etmək üçün Bərdə şəhərində baza yaradılmışdır. Yenidənqurma işləri başa çatdıqdan sonra müəssisənin istehsal gücü 2 dəfəyə qədər artaraq 15 min ton olacaq.

Çin Xalq Respublikasının texniki dəstəyi ilə Culfa rayonunda Azərbaycanda ilk dəfə olaraq 2021-ci ildə Külək-Günəş Hibrid Elektrik Stansiyası tikilib istifadəyə verilmişdir. Bu gün Naxçıvan Muxtar Respublikasının elektrik enerjisinə olan tələbatı tamamilə yerli istehsal hesabına təmin edilir. Özü də onun tələbatının 50 faizdən çoxu bərpaolunan enerji mənbələri hesabına ödənilir.

"Azərxalça" ASC-nin Naxçıvan filialının yaradılması nəinki qədim ənənəsi olan xalçaçılıq sənətinin inkişafına şərait yaratmışdır, eyni zamanda yeni iş yerlərinin yaradılmasına imkan vermişdir. Qeyd edək ki, 2018-ci ildə adambaşına düşən sənaye məhsulunun istehsalına görə Naxçıvan MR ancaq Bakı şəhəri və Abşeron iqtisadi rayonundan geri qalır. Bu da, əsasən, paytaxtda neft sektoru və Sumqayıtda sənaye parklarının yaradılması hesabına sənayenin üstünlük təşkil etməsi ilə izah edilə bilər.

Azərbaycanda regional iqtisadi siyasətin əsas hədəflərindən biri onların iqtisadi və sosial inkişafında mövcud olan fərqlərin azaldılması və tarazlığa nail olunmasıdır. Prezidentin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasın"da regionların tarazlı sosial-iqtisadi inkişafını qiymətləndirmək üçün meyar kimi 3 göstərici nəzərdə tutulmuşdur. Onlar adambaşına düşən məhsul (xidmət) istehsalından, investisiyaların həcmindən və əmtəə dövriyyəsindən ibarətdir. Konsepsiyanın hədəflərindən biri də ölkənin iqtisadi rayonları arasında mövcud olan fərqlərin azaldılmasıdır. Paytaxt və regionların tarazlı inkişafı, regionların paytaxtla müqayisə oluna biləcək yaşayış standartlarına malik olması, milli gəlirdə onların payının artırılması dövlət başçısının 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair milli prioritetlər"də də nəzərdə tutulmuşdur. Ancaq, bizim fikrimizcə, bu göstəricilər üzrə Bakı şəhəri ilə digər regionları müqayisə etmək düzgün olmazdı. Çünki paytaxtın iqtisadi strukturu neft-qaz sektorunun, ölkənin və transmilli şirkətlərin yerləşməsi hesabına digər iqtisadi rayonlarla müqayisədə çox fərqlidir. Regionların inkişafında tarazlıq səviyyəsini qiymətləndirmək məqsədilə, bizim fikrimizcə, digər iqtisadi rayonlardan birini müqayisə obyekti kimi qəbul etmək və qalan regionları onunla müqayisə etmək lazımdır. Seçilmiş həmin region adambaşına ən yüksək sosial-iqtisadi göstəriciyə malik olmaqla iqtisadi strukturu digər regionlara müəyyən qədər oxşar olmalıdır. Bu gün həmin meyarlara uyğun olan Naxçıvan iqtisadi rayonudur.

Regionların tarazlı sosial-iqtisadi inkişafı və sosial müdafiə sistemi iə bağlı konsepsiyanın hədəflərinin 2014-2018-ci illərdə formalaşmış icra səviyyəsinin araşdırılması əsasında müəyyən edilmişdir ki, 2018-ci ildə 2014-cü illə müqayisədə onların inkişaf göstəricilərində xeyli irəliləyişlərə nail olunmuşdur. Ancaq regionların iqtisadi və sosial inkişafında tarazlıq hələlik tam təmin edilməmişdir. Onların iqtisadi inkişaf səviyyəsi bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, 2018-ci ildə Naxçıvan iqtisadi rayonu ilə müqayisədə digər iqtisadi rayonlar (işğal altında olmuş regionlar istisna olmaqla) adambaşına məhsul istehsalına görə 1,5-4, əsas kapitala investisiyaya görə 1,1-1,2, pərakəndə ticarət dövriyyəsinə görə 1,4-1,9, əhalinin nominal gəlirlərinə görə 1,1-1,6 dəfə aşağı pillədədir. 2014-2018-ci illərdə iqtisadi rayonların hamısında əhalinin nominal gəlirlərinin artmasına baxmayaraq, bu göstəriciyə görə, Bakı şəhəri nəzərə alınmadan, 2018-ci ildə 4091 manatla birinci yerdə Naxçıvan, ikinci yerdə Abşeron, üçüncü yerdə isə Gəncə-Qazax iqtisadi rayonları qərarlaşmışdır. Bütün göstəricilərə görə birinci yer Naxçıvan iqtisadi rayonuna (Bakı şəhəri nəzərə alınmadan), ikinci yer Abşeron iqtisadi rayonuna, üçüncü yer Aran iqtisadi rayonuna məxsusdur. Ən aşağı göstəricilər isə bir milyona yaxın əhalisi olan Lənkəran iqtisadi rayonunda formalaşmışdır. 2018-ci ildə digər regionlarla müqayisədə Naxçıvan iqtisadi rayonunda əhalinin gəlirləri 1,4, sənaye məhsulunun istehsalı 3, əsas kapitala investisiyalar 2,8, ümumi məhsul (xidmət) istehsalı 2,5, pərakəndə ticarət dövriyyəsi 1,7 dəfə çoxdur.

Əhalinin gəlirlərinin yüksək olması muxtar respublikada genişmiqyaslı mənzil tikintisinin həyata keçirilməsinə imkan vermiş, insanların yaşayış şəraiti yaxşılaşmışdır. Belə ki, 2018-ci ildə Naxçıvan MR-in mənzil fondu 2005-ci illə müqayisədə 1,6 dəfə artaraq 13,6 milyon kvadratmetr olmuşdur. Adambaşına düşən ümumi mənzil sahəsi 30 kvadratmetrə çatmışdır ki, bu da Azərbaycanın Mənzil Məcəlləsində nəzərdə tutulan normadan 1,5 dəfə çoxdur. Diqqəti cəlb edən mühüm cəhət ondan ibarətdir ki, muxtar respublikada mənzil tikintisi, əsasən, məhz əhalinin öz vəsaiti hesabına həyata keçirilir. Belə ki, 2005-2018-ci illərdə tikilib istifadəyə verilmiş 3 milyon 656 min kvadratmetr ümumi sahəsi olan yaşayış evlərinin 98,2 faizini fərdi yaşayış evləri təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə ölkədə iqtisadi rayonların yeni bölgüsü təsdiq edilmişdir. Əvvəlki bölgüdən fərqli olaraq, iqtisadi rayonların sayı 9-dan 14-ə qədər artırılmışdır. Yeni bölgü iqtisadi rayonlar üzrə planlaşdırma işlərinin səmərəliliyini artırmaqla onların ixtisaslaşmasına da müsbət təsir edəcək və asanlaşdıracaq. Çünki yeni bölgüdə ərazilərin coğrafi quruluşu, təbii iqlim şəraiti, torpaqların xüsusiyyəti, əhalinin məşğulluq və digər xüsusiyyətləri nəzərə alınmışdır.

"Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" dövlət başçısının 15 iyul 2021-ci il tarixli fərmanında kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması bir hədəf kimi müəyyən edilmişdir. Beynəlxalq təcrübədə dəyər zəncirinin həlqələri üzrə istehsalın artımı klasterlərin, başqa sözlə, keçmiş SSRİ-də olduğu kimi, aqrar sənaye kompleksinin yaradılması yolu ilə həyata keçirilir. Hesab edirik ki, kənd təsərrüfatı xammalının, məsələn, pambığı emal edən təsərrüfat subyektlərinin və fermer təsərrüfatlarının bazasında klasterlərin yaradılması təxirəsalınmaz vəzifələrdən biridir. Aqrar və sənaye sektorlarının işçilərinin maddi marağının son istehlak mallarının (parça, geyim məhsulları və s.) istehsalına yönəldilməsi onların gəlirlərinin artmasına və pambıq xammalının kompleks istifadəsinə imkan verər.

Regional sosial-iqtisadi inkişafın səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri onların yerli gəlirləridir. Prezident İlham Əliyev demişdir: "Elə bir bölgə yoxdur ki, öz daxili resursları hesabına yaşaya bilsin... Ancaq biz çalışmalıyıq ki, hər bir bölgə özünə xas olan xüsusiyyətlərdən, spesifik coğrafi və ərazi imkanlarından istifadə edərək özünün maksimum dərəcədə yerli istehsalın artırılması hesabına təmin edə bilsin". Hələ 2012-ci il dövlət büdcəsinin Milli Məclisdə müzakirəsi zamanı maliyyə naziri də haqlı olaraq vurğulamışdır ki, regionların özünü maliyyələşdirmə prinsipinə keçməsinin təmin edilməsi mühüm strateji vəzifələrdən biridir. Sonrakı illərdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2022-ci ildə regionlarda yaranan büdcə təyinatlı gəlirlər 2013-cü illə müqayisədə 1,7 dəfədən çox artaraq 985,2 milyon manat təşkil edəcəkdir. Yerli gəlirləri və xərcləri tənzimləmək üçün mərkəzləşmiş xərclərdən ayrılan dotasiyanın yerli büdcələrə verilməsi gözlənilir ki, bu da 2013-cü illə müqayisədə 2,3 dəfə azdır. Onu da qeyd edək ki, dotasiyanın 14,8 milyon manatı işğaldan azad edilmiş regionların payına düşür. Naxçıvan iqtisadi rayonunda isə yerli gəlirlərin 2,5 dəfədən çox artması planlaşdırılır.

Yerli gəlirlərin artırılması üçün regional iqtisadiyyata yönəldilən investisiyaların səmərəli istifadəsi mühüm əhəmiyyət kəsb edir. Regional səviyyədə investisiyaların iqtisadi səmərəliliyini qiymətləndirmək məqsədilə apardığımız hesablamalarda statistik uçotu aparılan iki göstəricini əsas götürmüşük - iqtisadi rayonlar üzrə mal (xidmət) istehsalının ümumi həcmi və əsas kapitala yatırılan investisiyalar. Hesablamalar göstərmişdir ki, Naxçıvan iqtisadi rayonunda investisiyalardan istifadənin səmərəliliyi orta respublika səviyyəsindən 2,3, Quba-Xaçmaz, Abşeron, Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonları ilə müqayisədə 1,4-7,4 dəfə çoxdur.

Regional dövlət büdcə gəlirlərinin artımına həlledici təsir göstərən amillərdən biri iqtisadiyyatın strukturudur. Qeyd edək ki, bütünlükdə iqtisadi rayonların əksəriyyətində sənayenin xüsusi çəkisi aşağıdır. Ölkə üzrə sənaye məhsullarının yalnız 20 faizə qədərinin regionlarda istehsal edilməsi də bunu sübut edir. Şəki-Zaqatala, Lənkəran-Astara və Quba-Xaçmaz iqtisadi rayonlarında isə ümumi məhsul (xidmət) istehsalında sənaye sektorunun xüsusi çəkisi 2,2-14 faizdir. Əvəzində regionlarda aqrar sektor üstün mövqeyə malikdir. Aqrar sektorun vergilərdən azad olunması ilə yanaşı, sənayenin zəif inkişafı yüksək gəlirli iş yerlərini və büdcə gəlirlərini azaldan amil kimi çıxış edir. Odur ki, bu regionlarda aqroemal sektorunun intensiv yolla inkişafının təmin edilməsi onların tarazlı inkişafının sürətləndirilməsi baxımından da çox vacibdir. Milli hesabların materiallarının öyrənilməsi göstərir ki, hər manat istehsal edilmiş kənd təsərrüfatı məhsulundan 48 qəpik xalis mənfəət əldə edilir.

Naxçıvan MR-də kənd təsərrüfatı ilə bağlı məsələlər də xüsusi diqqət mərkəzindədir. Bu gün muxtar respublikada müasir suvarma sistemlərindən istifadə olunur. Ümumilikdə regionda 2069 hektar əkin sahəsinində qapalı suvarma sistemi var. Bu sistem imkan verir ki, qrunt suları əkin sahəsindən kənarlaşdırılsın. Suvarma normalarına və digər aqrotexniki normalara əməl olunması nəticəsində torpaqlardan istifadənin səmərəliliyi yüksəlir və məhsuldarlıq artır. Aqrotexniki qaydalara əməl edilməsini stimullaşdırmaq məqsədilə torpaq mülkiyyətçilərinə subsidiyaların ancaq bu qaydalara əməl edənlərə verilməsi nəzərdə tutulmuşdur.

Muxtar respublikada dövlətə məxsus torpaq sahələrinin əhaliyə icarəyə verilməsi həyata keçirilir. Bu yollar münbit torpaq sahələri əkin dövriyyəsinə cəlb edilir ki, respublikanın ərzaq təhlükəsizliyi təmin olunsun. Həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalının dəyəri 2003-cü ildəki 71,8 milyon manatdan 2018-ci ildə 478,8 milyon manata çatmışdır. Adambaşına kənd təsərrüfatı məhsullarının istehsalı 1050 manat təşkil etməklə ölkə üzrə orta göstəricidən 1,5 dəfə çoxdur. 2018-ci ildə 2010-ci illə müqayisədə taxıl, kartof və tərəvəz istehsalında məhsuldarlıq 1,2-1,3 dəfə artmışdır.

Diqqət yetirilməsi vacib olan bir məsələ də ondan ibarətdir ki, sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 novdə məhsul istehsal edilir. 2021-ci ilin məlumatına görə, əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Ötən il "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" qəbul edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, muxtar respublikada kənd təsərrüfatının inkişafını təmin edən əsas vasitələrdən biri dövlət dəstəyidir. Bu regionda dövlət dəstəyi həm kənd təsərrüfatı məhsullarının istehsalına, həm də onların emalı üçün yeni emal müəssisələrinin yaradılmasına yönəldilir. Dövlət proqramının icrası muxtar respublikanin ixrac potensialının artırılmasında mühüm rol oynayır. Burada istehsal olunan bir çox məhsullar həm Azərbaycanın digər rayonlarına göndərilir, həm də Polşaya, İrana və digər ölkələrə ixrac edilir.

Daxili bazarın inkişafı və qiymət baxımından əhalinin əlçatanlığını təmin etmək üçün hər həftənin şənbə və bazar günləri təkcə Naxçıvan şəhərində deyil, həm də rayon mərkəzlərində kənd təsərrüfatı məhsulları ilə yanaşı sənaye məhsullarının da yarmarkası təşkil olunur. Həmin məhsuların qiymətlərinin bazar qiymətlərindən aşağı olmasının hədəfi müəyyən edilir və ona riayət edilməsinə ciddi nəzarət olunur.

Bu gün Naxçıvan Muxtar Respublikasında geniş sahibkarlar sinfi formalaşmış və o, sosial-iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrilmişdir. Pandemiyanın tüğyan etdiyi bir dövrdə sahibkarlara dövlət dəstəyi genişləndirilmiş, onlara subsidiyalar verilmişdir.

Naxçıvan-Zəngəzur-Mincivan dəmir yolu xəttinin yenidən bərpası muxtar respublikanı blokadadan çıxarmağa, muxtar respublikada yük daşımalarını ucuzlaşdırmağa, xarici ticarət bazarlarının və qonşu ölkələrlə nəqliyyat əlaqələrini genişləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. 2020-ci ilin 10 noyabr bəyənatına uyğun olaraq Zəngilandan Naxçıvana dəmir yolu xəttinin bərpası regionun Beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə şərait yaradacaq. Bununla Naxçıvan Muxtar Respublikasının inkişafında yeni tarixi mərhələ başlayacaqdır.

***Tofiq HÜSEYNOV,***
***iqtisad elmləri doktoru, professor, AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, Əməkdar iqtisadçı***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Bir ayda 5 minə yaxın yeni abonent



Dünyada çox az ölkə tapılar ki, qazlaşdırmanın sürət və səviyyəsinə görə Azərbaycanla rəqabət apara bilsin. Təkcə, son 10 ildə ölkədə 1675-dən çox yaşayış məntəqəsi mavi yanacaqla təmin olunub. Cari ildə daha 110-a yaxın kənd və yeni yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulub. Bunlar ölkəmizdə qazlaşdırmanın dünya miqyasında yüksək göstəricilər qazandığını təsdiqləyən əyani faktlardır.

Azərbaycanda qazlaşdırmanın uğurla həyata keçirilməsi dövlətin sosial siyasətinin bir hissəsidir. Təsadüfi deyil ki, regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarına uyğun olaraq, son 18 ildə ölkənin uzun müddət təbii qaz almayan çoxsaylı yaşayış məntəqələri, eləcə də indiyədək qazlaşdırılmayan kənd və qəsəbələri mavi yanacaqla təmin edilib. Qaz xətləri hətta sovet dövrünün ən inkişaflı illərində qazlaşdırılması mümkün olmayan yerlərədək çatıb. Qaz çəkilişi, xüsusilə də dağlıq ərazilərdə çətin, zəhmət tələb edən işdir. Bu, həm də böyük maliyyə vəsaiti tələb edir. Bununla belə, çoxlu dağ kəndlərimiz xeyli vaxtdır mavi yanacaqdan istifadə etmək imkanı qazanıb. Həmin yerlərdə xətlər dağlardan, qayalıqlardan keçdiyi üçün boruların iş gedən ərazilərə hətta əllə daşındığı da məlumdur. Bu, qazlaşdırma istiqamətində genişmiqyaslı işlər həyata keçirməyə mane olmur. Yeri gəlmişkən qeyd edək ki, bu ilin fevralında ölkə üzrə 83 kilometr yeni qaz xətləri çəkilib. Bunun 15,4 kilometri Bakı və Abşeronun payına düşüb. Qalan 68 kilometr qaz xətlərinin çəkilişi regionlarda həyata keçirilib.

Qazlaşdırmanın uğurla aparılması həm də ölkəmizin karbohidrogen yataqlarında mavi yanacaq hasilatının bol və ahəngdar olmasından qaynaqlanır. Məsələn, fevral ayında "Azəriqaz" ümumilikdə 980 milyon kubmetr qaz qəbul edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,3 faiz çoxdur. Xatırladaq ki, Azərbaycan özünü qazla təmin etməklə yanaşı, xeyli vaxtdır Gürcüstana və Türkiyəyə, artıq bir ildən çoxdur Avropaya da qaz ixrac edir.

Eyni zamanda ölkəmizdə yeni yaşayış massivləri salınır, şəhər və kəndlərdə yeni evlər tikilir, işğaldan azad edilmiş ərazilərdə bərpa işləri aparılır. Bütün bunlar qazlaşdırma sahəsində yeni işlərin görülməsini tələb edir və biz həmin vəzifənin öhdəsindən gəlirik. Bu il fevralın əvvəlində Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 8-ci toplantısındakı çıxışında əhalinin sayının çoxalması ilə Azərbaycanın özünün də mavi yanacağa tələbatının artmasını diqqətə çatdıraraq deyib: "İlk növbədə, əhalinin sayının artması ilə əlaqədar bizim daxili tələbatımız da artır. Azərbaycanın demoqrafik vəziyyəti çox müsbətdir. Eyni zamanda sənaye artır. Ötən il bizdə qeyri-enerji əsaslı sənayedə rekord artım göstəricisi qeydə alınıb. Sənayemizin bu sektoru demək olar ki, 20 faiz artıb. Əlbəttə ki, bizim öz tələbatımızı qarşılamaq üçün daha çox qaza ehtiyacımız var. Həmçinin ümidvaram ki, 2020-ci ildə Vətən müharibəsi ərzində işğaldan azad edilən ərazilərimizi qazlaşdırmaq üçün çox tezliklə bizim əlavə həcmdə qaza ehtiyacımız olacaq".

Qeyd edək ki, hazırda qazlaşdırma "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində maliyyə imkanlarına uyğun olaraq həyata keçirilir. Təkcə, keçən il ölkəmizin şəhər və rayonlarında ümumilikdə 100-ə yaxın yeni yaşayış massivi qazla təmin olunub. 200-dən artıq şəhid ailəsi və müharibə iştirakçısının fərdi yaşayış evi "Azəriqaz"ın daxili imkanları hesabına qazlaşdırılıb.

Ölkədə hələ qazlaşdırılmayan 982 kənd mövcuddur. Cari ilin əvvəlində "Azəriqaz"la Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında keçirilən növbəti işçi görüşdə bu barədə də söhbət gedib. Bildirilib ki, həmin kəndlərdən 426-sı meşəətrafı ərazidə yerləşir. Bu ərazilərin isə yalnız 260-nın qazlaşdırılması texniki-iqtisadi baxımdan səmərəli hesab edilir. Bu il həmin 460 kəndin 25-i qazla təmin olunacaq. Qalan 235 kənd isə növbəti 5 ildə tam qazlaşdırılacaq.

İşğaldan azad olunan ərazilərdə qazlaşdırma ilə əlaqədar hazırda layihələşdirmə işləri görülür. İlk olaraq Ağdam və Şuşanın qazlaşdırılmasından söhbət gedir. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni evləri, sosial və istehsal təyinatlı müəssisələri mavi yanacaqla təmin etmək qarşıda duran ən mühüm məsələlərdən biridir.

Cari ilin fevral ayı ərzində ölkə üzrə 4868 yeni abonent qeydiyyata alınıb. Bunun 4557-si əhali, 311-i qeyri-əhali sektorunun payına düşür. Deməli, indiyədək qaz almayan vətəndaşlar, eləcə də sosial, iqtisadi və xidmət obyektləri də növbə ilə ondan istifadə etmək imkanı qazanırlar.

Qeyd edək ki, hazırda "Azəriqaz" İstehsalat Birliyi abonentlərinin sayı 2 milyon 452 min 924-ə çatıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Şəhid ailələri və müharibə əlillərinə daha 100 mənzil verildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı şəhəri və Abşeron rayonundakı yaşayış komplekslərində daha 100 mənzil şəhid ailələri və müharibə əlillərinə təqdim edilib.



Mənzillərin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli bildirib ki, Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla ölkəmizdə vətəndaş rifahının təminatına xidmət edən ardıcıl, genişmiqyaslı sosial islahatlar 2022-ci ilin əvvəlindən də davam edib. Yeni sosial islahat paketi olaraq cari ilin əvvəlindən əməkhaqqı, pensiya və s. sosial ödənişlər növbəti dəfə artırılıb. 3,4 milyon şəxsi əhatə edən bu artımlar üçün ayrılan illik əlavə vəsait 2,1 milyard manatdır.

Nazir müavini tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailəsi üzvləri, müharibə veteranları, erməni terrorundan zərər çəkənlərlə bağlı icra olunan sosial dəstək proqramını qeyd edib. V.Nəsirli mühüm sosial dəstək tədbirlərindən biri kimi, şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramının da dövlət başçısının sərəncamı ilə 5 dəfə genişləndiyini vurğulayıb.

Qeyd edilib ki, bu gün də daha 100 mənzil şəhid ailələri və müharibə əlillərinə təqdim edilir. Beləliklə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin əvvəlindən 200, postmüharibə dövründə 3200, ümumilikdə ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib.

Tədbirdə yeni mənzillə təmin olunan vətəndaşlar şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması işlərindən razılıqla bəhs ediblər. Onlara göstərilən yüksək diqqət və qayğıya, Novruz bayramı öncəsi yeni mənzillə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Vətən müharibəsi şəhidlərinin ailələri və müharibə əlilləri qeydiyyata alındıqdan qısa müddət sonra artıq onların mənzillə, eləcə də müharibə əlillərinin avtomobillə təminatı həyata keçirilir. Bu da onlara xüsusi qayğının daha bir təzahürüdür.

Nazirlik ötən ildə daha 164 nəfər müharibə əlilini, ümumilikdə ötən dövrdə isə 7400 müharibə əlilini avtomobillə təmin edib.

## Heydər Əliyev Fondu Xaçmazda körpələr evi-uşaq bağçasını əsaslı təmir edib

Xaçmaz rayonunun Yalama kəndində Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilən körpələr evi-uşaq bağçasının açılışı olub.



Bina 1976-cı ildən məktəb yataqxanası, 1990-cı ildən isə uşaq bağçası kimi fəaliyyət göstərib. Ötən müddətdə bina köhnəldiyindən burada əsaslı təmir işləri aparılıb.

Hazırda bağçada 3 qrup fəaliyyət göstərir. 60 yerlik məktəbəqədər təhsil müəssisəsində yataq, oyun, musiqi və həkim otaqları mövcuddur. Azyaşlı sakinlərin zövqünə uyğun qurulan bağçada onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin etmək üçün şərait yaradılıb və müvafiq inventarla təchiz edilib. Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

AZƏRTAC xəbər verir ki, bağçanın açılış mərasimində çıxış edənlər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məktəbəqədər təhsilə göstərdiyi diqqət və qayğıdan, bu istiqamətdə görülən işlərdən və körpələr üçün yaradılan şəraitdən danışıblar.

Tədbirdə bildirilib ki, bu gün uşaqların keyfiyyətli təhsil və qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət siyasətinin başlıca prinsiplərindəndir. Respublikamızda yüzlərlə uşaq bağçası və körpələr evinin tikilməsi, bir çoxunun isə yenidən bərpası ölkəmizdə uşaqlara göstərilən diqqət və qayğının tərkib hissəsi olmaqla yanaşı, həm də Azərbaycanın gələcəyinin daha etibarlı təminatına geniş imkanlar yaradır.

## Bu ilin ötən dövründə verilmiş kreditlərin 99 faizdən çoxu regionların payına düşür

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarların güzəştli qaydada maliyyələşdirilməsini davam etdirir.

Bu ilin ötən dövründə fond tərəfindən sahibkarlıq subyektlərinin 153 investisiya layihəsinin maliyyələşdirilməsinə 8,6 milyon manat güzəştli kredit ayrılıb. Bu kreditlər 200-dən çox yeni iş yerinin yaradılmasına imkan verir.

Cari ilin ötən dövrü ərzində iqtisadiyyatın sahələri üzrə verilmiş kreditlərin təsnifatında istehsal, emal və xidmət sahələri xüsusi yer tutub. Güzəştli kreditlərin layihə sayı üzrə 92,8 faizi kənd təsərrüfatı məhsullarının istehsalı, 5,9 faizi sənaye məhsullarının istehsalı və emalı, 1,3 faizi isə xidmət sahələrinin inkişafının payına düşüb. Kreditlərin məbləğ üzrə 36,1 faizi kənd təsərrüfatı məhsullarının istehsalı, 15 faizi sənaye məhsullarının istehsalı və emalı, 48,9 faizi isə xidmət sahələrinin inkişafına yönəldilib. Bu ilin ötən dövründə verilmiş güzəştli kreditlərdə regionların payı ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Belə ki, kreditlərin layihə sayı üzrə 0,7 faizi Bakı şəhəri, 99,3 faizi isə digər regionların payına düşüb. Məbləğ üzrə kreditlərin 0,3 faizi Bakı şəhərində, 99,7 faizi digər regionlarda fəaliyyət göstərən sahibkarlara verilib.

Qeyd edək ki, 2022-ci ildə güzəştli kreditlərin verilməsində aqrar sektorda istehsal və emal, qeyri-neft sənayesi sahələrinin inkişafı, turizm, tikinti, qədim xalq sənətinin müxtəlif istiqamətlər üzrə inkişafı, startaplar, rəqəmsal iqtisadiyyat, bərpaolunan enerji və s. sahələrin inkişafına xidmət edən layihələrin dəstəklənməsi prioritet istiqamətlər kimi müəyyən olunub.

Bundan əlavə, bu ildən etibarən fond tərəfindən layihələrin qiymətləndirilməsi zamanı üstünlük veriləcək meyarlar da müəyyəşdirilib. Bu meyarlara əsasən, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi, işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişafa xidmət edən, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, ətraf mühit, sosial və korporativ idarəetmə faktorlarına əsaslanan, idxaləvəzləyici və ixrac yönümlü istehsal və emala yönələn və s. biznes layihələrinin maliyyələşdirilməsinə xüsusi diqqət yetiriləcəkdir.

## DOST Agentliyi 4 istiqamət üzrə ISO sertifikatlarına layiq görülüb

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi "Lloyd's Register" sertifikatlaşdırma təşkilatı tərəfindən 4 istiqamət üzrə ISO sertifikatlarına layiq görülüb.

Agentlik ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi, ISO 10002:2018 Müştəri məmnunluğunun təmin edilməsi və Şikayətlərin İdarəedilməsi, ISO 26000 Sosial məsuliyyət və ISO 37001:2016 Rüşvət əleyhinə İdarəetmə sistemi üzrə bütün mərhələləri uğurla keçib. Bununla əlaqədar keçirilən mətbuat konfransında əvvəlcə agentliyin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov bildirib ki, ISO standartlarının tətbiqi DOST Agentliyi və DOST mərkəzlərinin işini daha da yaxşılaşdırmağa, xidmət keyfiyyətini yüksəltməyə imkan verəcək. DOST mərkəzlərinin fəaliyyəti ilə bağlı təqdimatla çıxış edən F.Məmmədov agentlikdə indiyədək görülən işlər və gələcək layihələr barədə məlumat verib.



Mətbuat konfransında Böyük Britaniyanın LRQA (Lloyd's Register) təşkilatının regional meneceri, Türkiyə və Şərqi Avropa təmsilçisi Burak Can bildirib ki, 4 istiqamət üzrə aparılan audit zamanı agentliyin fəaliyyətində hər hansı bir uyğunsuzluq aşkarlanmayıb və buna görə də agentlik beynəlxalq sertifikatlara layiq görülüb. Onu da qeyd etməyə dəyər ki, 260 illik tarixi olan "Lloyd's Register" 120-dən çox ölkədə fəaliyyət göstərən, dünyanın 30-dan çox akkreditasiya qurumu tərəfindən tanınan və demək olar ki, hər bir sektoru əhatə edən sertifikatlaşdırma təşkilatıdır.

Beynəlxalq İdarəetmə standartları sahəsində məsləhət xidməti olan "Bureau De Qualite" MMC-nin direktoru Asif İbrahimov fəaliyyət sahəsindən asılı olmayaraq bütün müəssisə və təşkilatlarda ISO standartlarının tətbiqinin xidmət keyfiyyətinin yüksəldilməsi üçün vacib olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, proseslərə hazırlıq və standartların tətbiq edilməsinə agentliyin bütün işçi heyəti cəlb edilib. Bununla əlaqədar 49 nəfərdən ibarət işçi qrup yaradılıb və standartlar agentlikdə İnteqrəedilmiş Menecment Sistemi (İMS) olaraq tətbiq edilməyə başlanıb. İMS-in tətbiqi zamanı ilkin olaraq agentliyin mövcud vəziyyəti qiymətləndirilib, güclü və zəif tərəfləri təhlil edilib. Daha sonra agentliyin bütün prosesləri İMS-in tələblərinə uyğunlaşdırılıb.

Beynəlxalq standartların tətbiqi başa çatdıqdan sonra həmin standartlara uyğunluğun qiymətləndirilməsi "Lloyd's Register" tərəfindən həyata keçirilib.

Tədbirin sonunda "Lloyd's Register" təşkilatının nümayəndəsi Burak Can DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədova 4 istiqamət üzrə ISO beynəlxalq sertifikatlarını təqdim edib. DOST Agentliyinə verilən sertifikatlar dünyanın ən tanınmış UKAS akkreditasiyasının möhürü ilə təsdiq olunub.

## Qlobal güclərin qarşıdurması ərzaq məhsullarının qiymətini artırır



Dünya iqtisadiyyatı yenidən ağır sınaq qarşısında qalıb. Budəfəki sınaq iqtisadi qanunauyğunluqdan deyil, siyasi çəkişmə, onun nəticəsi olan müharibədən qaynaqlanır. Artıq Rusiya-Ukrayna münaqişəsi iki ölkə arasında olan hərbi toqquşmadan beynəlxalq problemə çevrilib. Buna səbəb dünyanın güc mərkəzlərinin mövcud vəziyyətlə razılaşmayıb balansı öz xeyirlərinə dəyişmək istəyi ilə bağlıdır.

Məlum iki dünya müharibəsində az müşahidə edilmiş iqtisadi qadağalar indi ön plana keçib. Daha doğrusu, indi iki silahdan birlikdə istifadə olunur. Yəni tərəflər bir-birinə raket atmaqla kifayətlənmir, həm də iqtisadi cəhətdən biri digərini çökdürmək istəyir. Hamıya məlumdur ki, Ukraynada baş verənlər birləşmiş Qərblə Rusiya arasındakı gərginliyin görünən tərəfidir. Ancaq son vaxtlar Qərb və Rusiya məsələnin təkcə Ukrayna ilə bağlı olmadığını açıq şəkildə bəyan etməyə başlamışlar.

Qərb tərəfindən tətbiq olunan sanksiyalara Rusiya da qarşılıq verir. Nəticədə dünyada yeni iqtisadi böhranın yaranmasının ilkin əlamətləri görünür. Belə davam edərsə, qlobal iqtisadiyyat yenidən ağır zərbə alacaq ki, bu da iqtisadi fəallığın azalmasına və sosial gərginliyin artmasına səbəb olacaq. Başlıca narahatlıq doğuran məsələ enerji və ərzaq qiymətlərinin sürətlə bahalaşmasıdır. Bu isə öz növbəsində birbaşa insanların sosial rifahına mənfi təsir göstərən amillərdir.

Rusiya ölkədən buğda ixracına qadağa məsələsini gündəmə gətirib. Artıq bu ölkə yaxın müttəfiqləri olan Ermənistana, Qazaxıstana, Qırğızıstana və Belarusa taxıl ixracını dayandırıb. Bununla kifayətlənməyib, ümumiyyətlə, ilin sonuna qədər ölkədən taxıl ixracına qadağa qoymaq niyyətindədir. Rusiyanın bu qərarı hökumətlə istehsalçılar arasında fikir ayrılığı yaradıb.

Rusiya Taxıl İttifaqının prezidenti Arkadi Sloçevski kütləvi informasiya vasitələrinə açıqlamasında bildirib ki, bu qərarın iqtisadi əsası yoxdur. Belə qərarın qəbul edilməsi siyasi istəklə bağlıdır. Vurğulayır ki, ölkədə daxili tələbat üçün kifayət qədər taxıl var. Onun ixracı ölkənin ərzaq təhlükəsizliyinə problem yaratmayacaq. Əksinə, indiki halda ölkə üçün təhlükənin səpin prosesi ilə bağlı olduğunu bildirir. Qeyd edir ki, tədbir görülməsə, növbəti ildə istehsalla bağlı problem yarana bilər.

Rusiya-Ukrayna savaşı başlayandan sonra dünya bazarında buğdanın qiyməti 40 faiz artıb. Buna səbəb Rusiya və Ukraynanın dünya bazarında buğda satışında 30 faiz paya malik olmalarıdır. Birdən-birə dünya bazarına bu qədər taxıl ixracının dayanması təbii ki, təsirsiz ötüşməyəcəkdir. Rusiyanın dünya bazarına ixracına qadağa qoyduğu buğdanın həcminin 6-8 milyon ton civarında olacağı bildirilir. Bu isə çox böyük həcmdir. Digər tərəfdən Ukrayna da logistik imkanların məhdudluğu üzündən buğda ixrac edə bilmir.

Qeyd edək ki, Rusiyanın buğda ixracını tamamilə dayandırmasından təsirlənməsi gözlənilən ölkələrdən biri də Azərbaycandır. Ölkəmiz 2021-ci ildə idxal etdiyi buğdanın 90 faizini Rusiyadan alıb. Təqdirəlayiq haldır ki, 2022-ci ilin əvvəlindən buğda idxalında bu ölkənin payı kəskin azaldılıb, Qazaxıstandan idxal isə artırılıb. Belə ki, yanvar ayında Rusiyadan 9872,19 ton bərk, 36893,31 ton yumşaq buğda, Qazaxıstandan 34736,52 ton yumşaq buğda, meslin və digərləri, 12202,5 ton bərk buğda almışıq. Xatırladaq ki, keçən ilin yanvarında Qazaxıstandan cəmi 3010, Rusiyadan isə 20182,74 ton buğda alınmışdı.

Azərbaycan cari ilin yanvar ayından Qazaxıstandan buğda və çovdar unu idxalını da kəskin şəkildə artırıb. İlin ilk ayında idxal edilən 847,54 ton buğda və buğda-çovdar ununun 844,91 tonu bu ölkədən alınıb. Müqayisə üçün bildirək ki, ötən ilin yanvarında xaricdən un idxalımız cəmi 157 ton olmuşdu. Onun da 151 tonu Rusiyadan alınmışdı. Bundan əlavə, 2021-ci il ərzində Azərbaycan xaricdən 3523,9 ton buğda və buğda-çovdar unu alıb. Onun 3478,27 tonu Rusiyadan, cəmi 6 tonu Qazaxıstandan gətirilib.

Çıxış yolu aqrar sektorda taxılçılıqda məhsuldarlığı artırmaqdır. Bununla yanaşı, yeni əkin sahələrini dövriyyəyə daxil etmək lazımdır. İşğaldan azad olunan ərazilərin ölkənin buğdaya olan tələbatının daxili istehsal hesabına ödənilməsinə müəyyən qədər töhfə vermək imkanı var. Ən başlıcası isə taxılçılıqla məşğul olan fermerlərə əlavə dövlət dəstəyinin verilməsi lazımdır.

Rusiya və Ukrayna dünya bazarına günəbaxan yağının da iri ixracatçılarındandır. Dünya bazarında bu iki ölkənin payı 31 faizdir. İndi bazarlarda həmin məhsulun da qiyməti bahalaşıb. Rusiya həmçinin şəkər ixracında payı yüksək olan ölkələrdəndir. Ümumiyyətlə, Birləşmiş Millətlər Təşkilatının mütəxəssislərinin hesablamalarına görə, dünya bazarında ərzaq məhsullarının qiymətləri növündən asılı olaraq ən azı 8-22 faiz arasında artacaq. Bu da milyardlarla insanın alıcılıq qabiliyyətinə mənfi təsir göstərəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Aqroparklar: Məhsuldarlığın artırılmasında səmərəli mexanizm

Hazırda 32 rayon üzrə 240 min hektar ərazidə ümumi layihə dəyəri 2,3 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-i isə emal sənayesi üzrə ixtisaslaşıb. Artıq 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır.

İndiyədək 25 aqroparkın yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 184 milyon manat güzəştli kredit, 27 aqroparka isə 1 mlrd. manat dəyərində investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi almış 26 aqroparka texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə bir çox təsdiqedici sənədlər verilib və bu təsdiqedici sənədlər üzrə həmin aqroparklar 39,8 mln. manat dəyərində güzəştlər əldə ediblər. Bu günədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub.

Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumi olaraq 4000-dən çox işçi daimi, 5000-dən çox işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 5000-dən çox iş yerinin yaradılması nəzərdə tutulur.

2021-ci ildə aqroparklarda 138 min ton buğda, 68 min ton arpa, 94 min ton dən qarğıdalı, 117 min ton şəkər çuğunduru, 71 min ton silos üçün qarğıdalı, 19 min ton pambıq, 2,3 min ton soya, 27 min ton yonca, 33 min ton süd və 2,3 min ton ət istehsal olunub.

2018-2021-ci illər ərzində aqroparklarda ümumi sahəsi 7600 hektardan çox olan intensiv meyvə bağları salınıb ki, bu meyvə bağlarından 2021-ci ildə 17 min ton alma, 921 ton zeytun, 960 ton badam, 934,7 ton nar, 1356 ton üzüm, 715 ton şaftalı, 368 ton armud və s. yığılıb. 2021-ci il ərzində meyvə bağlarından ümumilikdə 23 255 tondan çox məhsul əldə edilib.

## Ölkədaxili nağdsız əməliyyatların həcmi artıb



Fevralın sonuna ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artıb.

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, 2022-ci ilin fevral ayı ərzində kartlar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 1 milyard 379 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 1 milyard 16 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 361 milyon manatı POS-terminallar vasitəsilə gerçəkləşdirilib. Fevral ayı ərzində ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ümumi əməliyyatların 37,7 faizini təşkil edib.




● Xalq bayramı

**Mərasim folkloru mürəkkəb və geniş anlayış olduğuna görə, onun əhatə dairəsi də çoxcəhətlidir. Mifoloji tarixi-magik görüşlərin, ritual komplekslərinin əks olunması mərasim folkloru nümunələrini birləşdirən əsas funksiya kimi diqqəti cəlb edir. Mərasim folklorunda zaman anlayışı önəmli məqamlardan birini müəyyən edir. Hələ ibtidai dövrlərdən zaman insan həyatına müdaxilə etmiş, ilin ayrı-ayrı fəsillərində ona bilavasitə təsir göstərmişdir. İlin müxtəlif günlərində silsilə mərasimlər keçirilmişdir. Ayrı-ayrı mərasimlərdə sözün magik qüvvəsinə inam güclü olmuş, həmçinin sözlə hərəkətin vəhdəti bilavasitə onların yaranma strukturuna və poetik özəlliklərinə də təsirsiz ötüşməmişdir.**








# Novruz görkəmli alimlərin tədqiqatlarında

Xalq mənəviyyatının sərvəti olan şifahi söz sənətinin törəyişi insan təfəkkürünün hələ tam formalaşmadığı çağlarla bağlıdır. Erkən tarixi dövrlərdə təbiət və cəmiyyət hadisələri insanlarda yalnız müşahidə və ilkin təsəvvürlər yaradırdı. Təbiətdə baş verən hadisələrin yaranma səbəblərini dərk edə bilmədiklərindən onlara ilahi varlıqların müdaxiləsi kimi baxmış və bununla bağlı bu gün mərasim folkloru kimi qəbul olunan adət-ənənələr silsiləsi xalq ədəbiyyatına daxil olmuşdur.

Azərbaycan poetik xalq yaradıcılığının, mərasim folklorunun, Novruz bayramı kompleksini təşkil edən bədii nümunələrin toplanması, nəşri və tədqiqi sahəsində təqdirəlayiq işlər görülmüşdür. Azərbaycan mərasim folklorunun öyrənilməsi folklorşünaslığımızın aktual problemlərindən biridir. Çünki burada ayrı-ayrı ayinlərin, ritualların səciyyəviliyi bilavasitə xalqın yaşam tərzini, düşüncəsini, dünyagörüşünü, təfəkkürünü müəyyənləşdirir. Novruzun genezisi və tipologiysı ilə bağlı araşdırmalar XIX yüzillikdən bu günə qədər davam edir.

Azərbaycan folklorunda mərasimlərin, bayramların, ayrı-ayrı arxaik ayin və ritualların tədqiqi nəticəsində folklorşünaslıqda dəyərli elmi araşdırmalar ərsəyə gəlmişdir. Bu baxımdan F.Köçərlinin, Ə.Abidin, H.Zeynallının, S.Mümtazın, Y.V.Çəmənzəminlinin, M.H.Təhmasibin, M.A.Dadaşzadənin, P.Əfəndiyevin, V.Vəliyevin, A.Nəbiyevin, Q. Paşayevin, M.Qasımlının, B.Abdullayevin, E.Aslanovun, M.Kazımoğlunun, S.Orucovanın, A. Xəlilovun, Ş.Albalıyevin və başqalarının xidmətləri xüsusi qeyd edilməlidir. Azərbaycan mərasimlərinə, xüsusən də mövsümlə bağlı olanlara, Novruz və bayrama hazırlıq mərhələsini təşkil edən çərşənbələrə dair folklorşünaslıqda xeyli işlər görülmüş, ayrı-ayrı məqalə və dərsliklərdə onlardan bəhs olunmuşdur. Qərb şərqşünası A.Mets "Müsəlman intibahı" adlı kitabında göstərir ki, "Xalqın həyatında islamın təsirinin güclü olmadığını bayramlar sübut edir. Doğrudan da müsəlman ruhaniləri nə qədər çalışdılarsa, Novruz bayramını nə qadağan etməyə, nə də ona dini don geydirməyə müvəffəq oldular. Xalq kütlələri bahar bayramı olan Novruzun qeyri-dini, azad xarakterini qoruyub saxladılar".

XX yüzilliyin əvvəllərində nəşr olunan bir sıra jurnallarda mərasim folkloruna, Novruza aid nəğmələr çap olunmuşdur. Onların bir qismi M.H.Təhmasib tərəfindən yenidən nəşr edilmişdir. 1914-cü ildə "Məktəb" jurnalında çapdan çıxan nümunələr arasında Məmmədağa Axundzadənin "El sözləri" adı altında aşağıdakı "Kosa-kosa" mərasim nəğməsini çap etdirmişdir:

*Ay kosa-kosa gəlmisən*
*Gəlmisən meydanə sən.*
*Almayınca payını*
*Çəkilmə bir yanə sən.*
*Beş yumurta payındı,*
*Olmaya allanasan.*
*Mənim kosam oynayır,*
*Gör necə dingildəyir...*

Həmin jurnalda çap olunmuş nümunələr arasında Ağa bəy İsrafilbəyovun hekayəsində bayramla əlaqədar olan "Gün çıx, çıx, çıx!" və "Mən anamın ilkiyəm" nəğmələri də təqdim edilmişdir.

Y.V.Çəmənzəminli yazır ki, "xalqımız arasında Novruz bayramına bir ay qalmışdan başlayaraq çərşənbə axşamında vəsfi-hal kimi bir adət vardı. Qadın və qızlar toplaşaraq bir badya su qoyar və hərədən bir nişan alıb suya salardılar. Badya başında oturan qadın təsadüfən əlinə keçən nişanı sudan çıxarıb bir vəsfi-hal söyləyər, bu qayda ilə fala baxardılar. Deməli, nişan verənin ürəyində bir niyyət olar və niyyətinin baş verəcəyini və ya verməyəcəyini söylənən vəsfi-haldan duyardı". Müəllif sonra vəsf-hallara aşağıdakı nümunələri göstərir:

*Ağlama, naçar ağlama,*
*Əlində haçar ağlama,*
*Qapını bağlayan Allah*
*Bir gün açar ağlama.*

*Oturmuşdum səkidə*
*Ürəyim səksəkədə.*
*Üç qızıl alma gəldi*
*Bir qızıl nəlbəkidə ...*

Maraqlı məqamlardan biri də odur ki, bəzi tədqiqatlarda Novruzla zərdüştçülük arasında müqayisələr aparılmışdır. Hamıya məlumdur ki, müəyyən oxşarlıqlar olsa da, xalq bayramı olan Novruz mənşəyi və tarixiliyinə görə daha erkən çağlarla bağlıdır. Çünki "Günəşin müqəddəs sayılması təbii odun müqəddəs sayılmasından əvvəldir".

M.H.Təhmasibin "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" adlı namizədlik dissertasiyası Novruz ənənələrinin tədqiqatında xüsusi qeyd olunmalıdır. Əsərin müəllifi bir çox məsələlərin, o cümlədən "Ata-baba günü"nün, "Hodu-Hodu"nun, "Kosa-kosa"nın, "Səməni bayramı"nın üzərində təhlillər aparmış, bu mərasimlərin həm adlarının etimoloji izahını təqdim etmiş, həm də elmi-nəzəri fikirlərini irəli sürmüşdür.

Tədqiqatçılara görə, şifahi yaradıcılıqda əmək nəğmələrindən sonra mühüm yeri təbiəti dərketmə ilə, ayin, etiqad və mərasimlərlə bağlı nəğmələr tutmuşdur. Zaman-zaman bu hadisələri qavramaq, dərk etmək və sanki özünə tabe etmək məqsədilə insanlar ilk ibtidai inanc və etiqadlarını, ayin və mərasimlərini yaratmış və onlar şifahi yaradıcılıqda öz əksini tapmışdır. Xalq ədəbiyyatında həmin inam və etiqadlarla bağlı silsilə nəğmələr yaranmışdır ki, onların yalnız bir qismi bu günümüzə qədər gəlib çatmışdır. Mərasim nəğmələri adlanan bu poetik nümunələr öz mövzu və məzmun xüsusiyyətlərinə görə, əsasən, iki qrupa bölünür ki, bunlar mövsüm və məişət mərasimi nəğmələridir.

Görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Novruz Şərq ölkələrində" adlı araşdırması bu gün də aktualdır. Tədqiqatçı göstərir ki, "... Yaxın və Orta Şərqin bir çox ölkələrində bu bayram əziz və səbirsizliklə gözlənilən bir mərasim kimi qeyd edilir", "Mərkəzi Asiyadan Balkanlara qədər uzanan böyük bir ərazidə məskunlaşan bütün türk xalqları tərəfindən sevinclə qarşılanır... Müasir dovrdə Novruz bayramı Misir ərəbləri tərəfindən qarşılanır. Misirdə yazın gəlişi "Şəmmuu-n-nəsim" yaz və artım, məhsuldarlıq bayramı ilə bağlı müxtəlif mərasim və ayinlərin icrası ilə qeyd edilir..."

Azad Nəbiyev folklorşünas alim kimi fəaliyyətinin böyük hissəsini Novruz bayram kompleksinin araşdırılmasına həsr etmişdir. O, həm də Novruz çərşənbələrinin 4 yaradılış ünsürünə əsasən sıra düzümünü təqdim etmiş, beləliklə də, çərşənbələrin ardıcıl düzümünü əsaslandırmaqla mövcud olan fikir ayrılıqlarına son qoymuşdur. Alimin 2012- ci ildə çap etdirdiyi "Azərbaycanda Novruz" kitabı isə onun Novruzla bağlı apardığı tədqiqatların sonuncusudur. Azad Nəbiyevə görə, mərasim nəğmələri arxaik düşüncənin poetik ölçü və qəliblərin, poetik üslub və ifadə modellərinin ən erkən tiplərini ifadə edir, xalqların etik-estetik dünyagörüşü, əxlaqı, ritual və etiqadlarını sistem halında ifadə edir və erkən estetik düşüncəni və məişət əxlaqi detallarını əks etdirmək baxımından mövsüm mərasimi nəğmələri iki şəkildə nəzəri cəlb edir: Ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranan nəğmələr və ilin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlaşdıran nəğmələr.

Ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranan nəğmələrə yağışın yağması, Günəşin çıxması, küləyin əsməsi, göyün guruldaması, eləcə də oda, suya, küləyə və torpağa inamla bağlı yaranan nəğmələr daxil edilir. Belə nümunələrin birində, məsələn, Günəşə etiqadla bağlı aşağıdakı mətndə antropomorfik görüşlərin izləri diqqəti cəlb edir. İkinci bölgüdə ilin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlaşdıran nəğmələr yer almışdır ki, onlar əmək mövsümlərinin başlanması və ya məhsulun yığılması ilə bağlı yaranan nəğmələri əhatə edir.

Erkən dövrlərdə Azərbaycan ərazisində zərdüştçülükdə bağlı keçirilən bayramlar arasında Mehrikan bayramı da xüsusi qeyd olunmalıdır. Məmməd Arif Dadaşzadə "Azərbaycan xalqının Orta əsr mənəvi mədəniyyəti" adlı tədqiqatında Novruz bayramı və onun qədim adət-ənənələri haqqında məlumat verməklə yanaşı, göstərmişdir ki, "Mehrikan bayramı həmişə payız fəslinin əvvəlində məhsulun toplanışından sonra keçirilmişdir". Orta əsr müəllifləri Mehrikan bayramından söhbət açarkən əvvəlcə onun keçirildiyi vaxtı qeyd edirlər. Əbu Reyhan əl Biruni bu bayramın mehr ayının 16-dan 30-na kimi qeyd olunduğunu göstərir.

Erkən düşüncədə yeni əmək mövsümünün başlanması ilə bağlı mərasim və nəğmələr arasında "Şum mərasimi", "Saya mərasimi" və onları bəzəyən nəğmələr diqqəti daha çox cəlb edir. Azad Nəbiyev "Azərbaycan xalq ədəbiyyatı" əsərində "Novruzqabağı nəğmələr" adı ilə tanınan həmin nəğmələri də - "Çillə nəğmələri"nə, "İlaxır çərşənbə nəğmələri"nə və "Bayram məişəti nəğmələri"nə ayırır.

Tarixi mənbələrə görə, türklər hələ hunların dövründən bayram və mərasimlər keçirmişlər. Hunların mərasimlərinə bənzər rituallar Göytürklərin zamanında da keçirilmişdir. Türklər hər il bayram mərasimlərini təqribən beşinci ayın ikinci yarısında "Gök Tenqri" və "ıduk yer, suv" üçün qurban kəsməklə başlayardılar. Qurbandan sonra isə şənliklər olurdu. Bu zaman oyun oynar, kımız içər, nəğmələr söyliyərlərmiş.

A.Xəlilova görə, türklərdə odun təmizləyici funksiyasının, atəşpərəstlikdəki müqəddəslikdən fərqli olduğu fikri irəli sürülür. Məsələn, xalqımızın bayramda "Ağırlığım, uğurluğum, azarım-bezarım odlara" və s. ifadə etdiyi fikirlər odun müqəddəs sayılması düşüncəsi ilə uyğun gəlmir". Həqiqətən də Novruz ayin və mərasimlərində sakral məzmun daşıyan bəzi deyimlər getdikcə mərasimdən ayrılmış və ayrı-ayrı alqış, dua, tərif və sair bədii örnəklər kimi təzahür etmişdir.

*Ülkər NƏBİYEVA,*
*Bakı Dövlət Universitetinin professoru*

● El şənliyi

# Gəlin salamlayaq doğma baharı!

**Goranboyda Novruz bayramı münasibətilə Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında ümumrayon tədbiri keçirilmişdir.**




Tədbirdə rayon sakinləri əziz gün - Novruz bayramı münasibətilə təbrik olunduqdan sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi altında 44 günlük şanlı Vətən müharibəsində qazanılan qələbədən danışılmışdır. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra ərazi bütövlüyümüzün təmin olunduğu diqqətə çatdırılmış, 30 ildən sonra ilk dəfə bütün torpaqlarımızda bayram tonqallarının qalandığı, güclü dövlət və qalib xalq kimi qürurla əsl bayram günlərini qeyd etdiyimiz diqqətə çatdırılmışdır.

Azərbaycanın Milli Qəhrəmanı Maşallah Abdullayev və Vətən Müharibəsi Qəhrəmanı Saleh Həsənov bayram tonqalını alovlandırdıqdan sonra rayonun mədəniyyət və incəsənət ustalarının ifasında bayram konserti təqdim olunmuş, milli adət-ənənələrimizi özündə əks etdirən folklor və milli mətbəximizin nümunələri, rayon rəsm qalereyasının təqdimatında rəsm sərgisi nümayiş etdirilmişdir. İdmançıların nümunəvi çıxışları da tədbirə xoş ovqat qatmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

● İlin əziz günləri

# Baharın gəlişini azsaylı xalqlar da təntənə ilə qeyd edirlər




**Müqəddəs Novruz bayramını Azərbaycan xalqı ötən ilin noyabrında Vətən müharibəsində işğalçı erməni silahlı birləşmələri üzərində qazanılan möhtəşəm qələbəsinin sevinci ilə qeyd edir. Tarixi minilliklər öncəyə gedib çıxan Novruz bayramı Prezident İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə 2009-cu ildə UNESCO-nun siyahısına salınıb, 2010-cu ildə BMT Baş Assambleyası tərəfindən 21 Mart Beynəlxalq Novruz Günü kimi təsis olunub.**

Qürurlu duyğularla qarşıladığımız qədim Novruz bayramı nəinki republikamızda, Orta Asiya ölkələrində, Çin səddindən Afrikaya, Hindistana, Əfqanıstana, Yakutiyaya, Çuvaşıstana, Tatarıstana, Moldovaya, Macarıstan və Balkanlara qədər, bir sözlə, dünyanın harasında, hansı şəhərində, hansı kəndində yaşamasından asılı olmayaraq, bütün türk ailələrində məmnunluqla qeyd olunur.

Novruzun tərkibi quruluşca mürəkkəb, məzmunca dərin və genişdir. Folklorşünas tədqiqatçıların söyləmələrinə görə, bu bayramın uzunömürlülüyü qədim mədəni köklərə və milli ənənəvi qaynaqlara bağlılığındadır. Bu gün də Azərbaycanda, eləcə də bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunur. Bu bayramı ölkəmizdə yaşayan azsaylı xalqlar da təntənə ilə qeyd edirlər. Hələ uşaq yaşlarımda Şəmkir rayonunun indiki Kür qəsəbəsindən bir neçə kilometr aralı əraziyə köçürülmüş Axıska türklərinin timsalında da bunun canlı şahidi olmuşam. Bu ərazi Kür qəsəbəsi yaranana kimi Aşağı Bitdili kəndi adlanırdı. Stalinin əmri ilə 1944-cü il noyabr ayının 14-də öz tarixi torpaqlarından yük vaqonlarına doldurularaq Orta Asiyaya sürgün edilən Axıska türkləri, 1957-ci ildə hökumətin məlum reabilitasiya qərarından sonra öz yaşadıqları yerə qayıtsalar da, onlar öz doğma kəndlərinə buraxılmayıblar. Odur ki, 1959-cu ildən etibarən axıskalılar Azərbaycana və digər sovet respublikalarına köç etmişlər. O vaxtlardan onların böyük bir qismi Şəmkir rayonunun indi Kür qəsəbəsinin inzibati ərazisinə daxil olan Bitdili kəndində kompakt şəkildə məskunlaşıb. Özbəkistanın Fərqanə bölgəsində axıskalı türklərə qarşı yönələn dəhşətli hadisələrdən sonra 1989-cu ildə Axıska türkləri ikinci dəfə yaşadıqları yerdən sürgünə məruz qaldılar. O zaman Azərbaycana, o cümlədən Şəmkirə, Bitdili kəndinə gələnləri də az olmayıb. Hamımızın yaxşı tanıdığımız, 1993-cü il aprelin 18-də respublikamızın ərazi bütövlüyü uğrunda Gədəbəy rayonunun "Örükdaş" istiqamətində erməni quldurlarına qarşı gedən amansız döyüşlərdə igidliklə şəhid olan Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun mənsub olduğu ailə də elə bu sıradandır.

Şəmkirdə yaşayan axıskalı türklərin qeyd etdikləri ən əsas bayramlar Qurban və Ramazan bayramı olsa da, Novruz bayramını da qonşu azərbaycanlılarla birlikdə yüksək səviyyədə qeyd edirlər. Azərbaycanda yaşayan digər toplumlar kimi, Axıska türkləri də Novruz çərşənbələrinə və bayrama təmtəraqlı tədarük hazırlıqları ilə başlayırlar.

Azərbaycanlılarda olduğu kimi, axıskalılar arasında da yumurta döyüşdürülməsi qışla yazın, soyuqla istinin mübarizəsini nümayiş etdirməkdir. Toxum cücərtmək və ya Səməni qoymaq da bu şəkildə təbiəti canlandırmaq, ona təsir etmək vasitəsi kimi anlaşılır. Qulaqfalı və ya qapı pusmaq yeniləşmənin məlumat səviyyəsini əks etdirir. Burada Novruza aid olan bayram adətlərindən biri də torba atmaqdır. Axıskalılar arasında bu günün torba atmaq mədəniyyətində dəsmal atmaq və papaq atmaq kimi vasitələrdən istifadə edildiyi də müşahidə olunmaqdadır. Novruzun papaq atmaq kimi dillər əzbəri olan bu adətini yerinə yetirən uşaqlar yetərincə əylənirlər. Ənənəyə görə, torbanı boş qaytarmaq olmaz. Axıskalıların tanınmışlarından olan Zeynul Yektay Özbəkistandan sürgündən qayıdandan sonra Aşağı Bitdili kəndində yaşayırdı, tibb sahəsində çalışırdı. Sonralar Türkiyəyə köçsə də, Zeynul baba hər il Novruz bayramı münasibətilə həmvətənlərinə, azərbaycanlı tanış və dostlarına təbrik məktubları göndərərdi.

Novruz bayramı Şəmkirdə - Axıska türklərinin toplum halında yaşadıqları Aşağı Bitdili kəndində olduğu kimi, Saatlı, Sabirabad, Quba, Xaçmaz, Şabran, Beyləqan rayonlarında da yaşayan axıskalılar arasında geniş qeyd olunur. Bu şənliklər zamanı müxtəlif yarışlar keçirilir, Novruza aid şeirlər söylənilir, davul və zurnada şən musiqilər səsləndirilir, müxtəlif kompozisiyalarda səhnəciklər təqdim edilir. "Özbək, tatar, qırğız: bunlar bir soydur" mahnısı şənliyin ən yaddaqalan və insanları coşduran məqamlarından birinə çevrilir. Qaşıqda yumurta daşıma, kisə (çuval) geyinərək qaçma, habelə bir-birini dalına alıb aparmaq kimi yarışlar və məclisə ağ geyimli, al çiçəkli Bahar qızının gəlişi Axıska türklərinin iştirakı ilə təşkil edilən bayram şənliklərinin ən gözəl çalarlarındandır.

Novruz mədəniyyətlərin, ölkəmizdə yaşayan azsaylı xalqların ortaq bir bayramıdır. Bu ortaq bayram dünyanın narahat vaxtında insanları barışığa, mehriban olmağa, həmrəyliyə, həyatı sevməyə ruhlandırır. Bu ortaq bayram insanları birliyə, əkib-biçməyə, işləməyə, ən nəhayət, ölkəmizdə bolluq yaratmağa səsləyir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Novruz xaricdə

# Saz-söz bayramı

## Vyanada türk xalqlarının təmsilçilərinin iştirakı ilə Novruz şənliyinin təntənəli keçirilməsi heç də təsadüfi deyildi

**Novruz tonqalları bu gün Qarabağımızda - illərlə od-ocağı söndürülmüş doğma yurdlarımızda qalanır. Bu sevinci bizə Müzəffər Ali Baş Komandanımız yaşadır!**




Zaman-zaman sazın-sözün beşiyi kimi tanınan Kəlbəcərdə də ordumuzun qəhrəmanları bu günlərdə Novruz tonqalı yandırıblar. Kəlbəcərdə də sazlı-sözlü bayram şənlikləri keçirilir.

"Saz-söz şimşəyi" kimi tanınan ustad Aşıq Şəmşirin sənəti illərdir Kəlbəcərdən uzaq düşsə də, Avropanı heyran qoyub. Daha doğrusu, kəlbəcərlilərin Novruz tonqalı həm də "dünyanın o başında" şölələnib...

Belə bayram tədbirlərindən biri də Vyanada fəaliyyət göstərən Azərbaycan-Türk Mədəniyyət və İş Adamları Dərnəyinin və "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin birgə təşkilatçılığı ilə təşkil edilib. Bayram tədbirində türk xalqlarının diaspor nümayəndələri, eləcə də yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Bir vaxtlar dağlara-dərələrə hay-haray salan Tərtər çayının sahilində keçirilən "Saz bayramı-yaz bayramı"nın səs-sorağı Kəlbəcərin işğalından sonra uzaq ellərdən gəlir. Bu dəfə də Dunay çayının kənarında açıq havada təşkil edilmiş bayram tədbirində müxtəlif guşələrdə türk xalqlarına məxsus şirniyyat və təamlar təqdim olunub.

Azərbaycan-Türk Mədəniyyət və İş Adamları Dərnəyinin rəhbəri Yardım Günəş Novruz bayramının Azərbaycan və türk xalqları, o cümlədən regionda yerləşən bir sıra xalqların həyatında oynadığı roldan söz açıb. Bildirilib ki, Balkanlardan Uzaq Şərqə kimi geniş məkanda yayılmış türk xalqlarının ortaq bayramıdır Novruz. Onun yaşadılması və ona məxsus adət-ənənələrin gənc nəslə çatdırılması baxımından belə tədbirlərin əhəmiyyəti çox böyükdür: "Baharın müjdəçisi olan Novruzu xaricdə keçirmək, onun ab-havasını yaratmaq bir tərəfdən soydaşlarımızın öz adət-ənənələrini yaşatmasına, digər tərəfdən isə yerli ictimaiyyətdə sülh, dostluq və bərəkət bayramı haqqında ətraflı təsəvvür yaratmağa xidmət edir".

Avstriyada yaşayan azərbaycanlı müğənni Aysel Quluzadə, tanınmış azərbaycanlı sənətçi Cavid Təbrizli iki qardaş xalqın bəstəkar, xalq mahnılarını, Novruza aid bayram havalarını ifa ediblər. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin dəstəyi ilə tədbirə dəvət edilən gənc aşıq Əli Zeynalabdinovun səsləndirdiyi havalar xüsusi maraqla qarşılanıb.

Bayram tədbirində müxtəlif türk xalqlarının musiqiləri səsləndirilib, qonaqlara milli mətbəx nümunələri və bayram şirniyyatları təqdim olunub. Novruz tonqalı ətrafında davam edən bayram şənliyi həm də dünya xalqlarının birliyinin nümayişi kimi qəbul edilib. Bu da Novruz bayramının multikulturallığının təsdiqidir. UNESCO-nun Mədəni İrs siyahısına əlavə edilən Novruz millətləri və xalqları bir mədəniyyət bayrağı altına toplayan bayram anlamını verir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# "Azercell" Qarabağ qazilərinin xidmətindədir






"Azercell Könüllüləri" və şirkətin Mobil Müştəri xidmətlərinin əməkdaşları Protez-Ortopedik Bərpa Mərkəzinə səfər ediblər.

Aparıcı mobil operator "Azercell Telekom"un əməkdaşlarından ibarət "Azercell Könüllüləri" xeyriyyə qrupu uzun illərdir ki, əhalinin daha həssas təbəqələri üçün müxtəlif təşəbbüslər həyata keçirməklə yanaşı, Vətən müharibəsində şəhid olmuş əsgərlərimizin ailə üzvlərini, eləcə də sağlamlığını itirən qazilərimizi hər zaman diqqət mərkəzində saxlamağa çalışır. "Azercell Könüllüləri" növbəti səfərini Novruz bayramı ərəfəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Protez-Ortopedik Bərpa Mərkəzinin Mürəkkəb Protezləşdirmə Stasionarına etdi. Həmin bərpa mərkəzində müalicə alan qazilərimizlə bir neçə gün ərzində görüşlər keçirən "Azercell" əməkdaşları təşkil etdikləri bayram süfrəsində onlara xüsusi sovqatlarını təqdim etdilər.

Birinci və İkinci Qarabağ müharibəsi veteranlarının keyfiyyətli bağlantıya olan tələbatlarını nəzərə alaraq "Azercell" Mobil Müştəri xidmətləri komandası da bərpa mərkəzinə baş çəkərək onlar üçün təmənnasız 30-dan çox müştəri əməliyyatı həyata keçirtdilər. Səfər zamanı, bir qayda olaraq, "Azercell"in Müştəri Xidmətləri Mərkəzlərində göstərilən bütün növ xidmət və əməliyyatlar, o cümlədən yeni təsis, sim kartın dəyişdirilməsi və nömrənin bərpası kimi əməliyyatlar həyata keçirildi.Qələbə sevincini bizə qazandıran məğrur əsgərlərimizin rabitə imkanlarından daha rahat yararlanması məqsədilə təşkil olunmuş bu təşəbbüsdən qazilər çox razı qaldıqlarını söyləyərək "Azercell" əməkdaşlarına öz minnətdarlıqlarını ifadə etdilər.

Xatırladaq ki, bundan öncə "Azercell" Mobil Müştəri xidmətləri mobil rabitə təminatçıları arasında ilk dəfə olaraq Şuşaya səfər edərək iki gün ərzində hərbçilər, tibbi heyət və Şuşa şəhərinin bərpasında iştirak edən digər işçi heyəti üçün pulsuz rabitə xidmətləri həyata keçirib və növbəti aylar ərzində işğaldan azad olunmuş digər bölgələrə də səfər etməyi planlaşdırıb.

"Azercell Könüllüləri" xeyriyyə qrupu da şirkətin digər xidmət strukturları ilə birgə əhalinin daha həssas, daha çox qayğıya ehtiyacı olan təbəqələri üçün bundan sonra da yeni sosial təşəbbüslər həyata keçirməyi qarşısına məqsəd qoyub.

# AZAL aprel ayında Bakıdan Daşkənd şəhərinə uçuşlara başlayacaq




"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, aprel ayında Heydər Əliyev Beynəlxalq Aeroportundan Özbəkistanın paytaxtına birbaşa uçuşlar yerinə yetirilməyə başlanacaq. Aviaşirkət aprelin 2-dən etibarən Bakı-Daşkənd-Bakı marşrutu üzrə həftədə bir dəfə - şənbə günləri uçuşları həyata keçirəcək. Mayın 4-dən isə daha bir tezlik əlavə olunacaq, Daşkəndə uçuşlar çərşənbə günləri də yerinə yetiriləcək. Uçuş cədvəli ilə aviaşirkətin rəsmi **azal.az** saytında tanış olmaq mümkündür. Aviabiletləri aviaşirkətin rəsmi saytında, həmçinin aviadaşıyıcının akkreditə olunmuş agentliklərində rəsmiləşdirmək mümkün olacaq. Reyslərə yalnız COVID-19 pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq. Özbəkistana səyahət edən Azərbaycan vətəndaşları ölkəyə giriş qaydaları ilə burada tanış ola bilərlər: **https://www.azal.az/az/information/covid-uzbekistan.**

Azərbaycanda COVID-19 üçün test verilə bilən klinikaların siyahısı aviaşirkətin saytında qeyd edilmişdir: **https://www.azal.az/az/information/covid-clinics.**

Sərnişin Daşkənd şəhərindən Bakıya uçuş zaman COVID-19-a dair testi dövlət tərəfindən akkreditə olunmuş və PCR testi üsulu ilə analiz götürən istənilən klinika və ya laboratoriyada verə bilər. PCR testin mənfi nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

Azərbaycana giriş qaydaları ilə burada tanış olmaq mümkündür:
**https://www.azal.az/az/information/covid-azerbaijan.**

# Azərişıq" ASC qeyri-iş günlərində gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirəcək

Qurumun Mətbuat xidmətinin məlumatına görə, Səhmdar Cəmiyyətin Mərkəzi Aparatında, Regional Enerji Təchizatı və Satışı idarələrində, şəhər və rayon elektrik şəbəkələrində növbətçilik rejimi tətbiq edilərək, qəza xidməti və 199 Çağrı mərkəzi 24 saat istehlakçıların xidmətindədir. Bayram və qeyri-iş günlərində istehlakçıların dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatının təmin olunması məqsədilə bütün təşkilati və texniki tədbirlər görülüb. İstehlakçılardan xahiş edirik ki, yarana biləcək hər hansı problemlə əlaqədar "Azərişıq" ASC-nin 24 saat fasiləsiz fəaliyyət göstərən 199 - Çağrı mərkəzinə müraciət etsinlər.

# YARAT Müasir İncəsənət Mərkəzində belçikalı rəssamın sərgisi açılıb



"YARAT" Müasir İncəsənət Mərkəzində belçikalı rəssam Mişel Fransuanın "Panoptikum: Təpəgözün baxışında donmuş anlar" adlı fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgi restriktiv, süni vasitələr və onu əhatə edən təbii elementlər arasındakı dialoq kimi nəzərdə tutulub, insanın azadlıq ehtirasını simvolizə edir.

İmmersiv instalyasiya rəssamın Bakıdakı tədqiqat rezidenturasının nəticəsidir və ətrafdakı obyektlərə siklopik gözlə baxan müşahidə qülləsinin mərkəzi hissəsindən ibarətdir. Panoptikum hər şeyi müşahidə edir, həmçinin bizim varlığımızı çağırılmamış qonaqlar və ya şahidlər kimi əks etdirir. M.Fransua sosioloq və filosof Ceremi Bentamın XVIII əsrdə ixtira etdiyi institusional həbsxana nəzarət sisteminin memarlıq modelindən ilhamlanaraq bu əsəri yaradıb və şəxsi həyatın toxunulmazlıq hüququnu sanki "oğurlayan və talayan" nəzarət cihazlarından bezmiş bugünkü cəmiyyətin skeptik tənqidi kimi başa düşülə bilər.

Sərginin kuratoru Erix Vays jurnalistlərə müsahibəsində bildirib ki, Mişel Fransua Azərbaycana gələndə onu maraqlandıran bir çox məqamlarla üzləşib. Bunlar Azərbaycan xalqının təbiətlə və neft, qaz kimi təbii sərvətlərlə birbaşa əlaqəsidir: "İnsanda elə bir təsəvvür yaranır ki, çubuqla belə yeri qazsan, oradan sanki neft püskürəcək. Çalışmışıq ki, instalyasiyalar arasında videogörüntü verməklə palçıq vulkanlarını və digər təbiət hadisələrini sərgimizin mövzusu ilə əlaqələndirək. Alüminiumdan hazırlanmış fontan instalyasiyasına baxdıqda dediyimiz neft və qaz kimi sanki yerdən püskürür. Alüminium özü də bir təbii sərvət olaraq yerfıstığı ilə vəhdət şəklində təqdim olunur".

Mişel Fransua çıxışı zamanı ziyarətçilərə minnətdarlığını bildirib və onları sərgiyə baxmağa dəvət edib. Sərgi oktyabrın 4-dək açıq olacaq.

# "İNSƏN" - Müasir İncəsənət Mərkəzində yeni sərgi

"YARAT" Müasir İncəsənət Mərkəzində multidistiplinar rəssam Çingizin "İNSƏN" adlı yeni fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, "İNSƏN" Çingizin şəxsi təcrübə prizmasından qaynaqlanan və cəmiyyətin fərqli aspektlərini işıqlandırdığı immersiv fərdi layihəsidir. Rəssamın emalatxanasının prototipi kimi çıxış edən, bununla yanaşı, canlı, daim inkişafda olan vahid orqanizm kimi təqdim edilən layihə interaktiv və prosesdə olan sərgidir. Sərginin əsas qəhrəmanı isə zamanın nəbzi və nəfəsi ilə yaşayan, dəyişən insan və onun əməlləridir.

Sərginin kuratoru Fərəh Ələkbərli sərgi haqda məlumat verib: "Bu, əslində, çox fərqli layihədir. Çünki hamının öyrəşdiyi, bildiyi adi sərgi deyil, 6 ay müddətində işlənib hazırlanan bir layihədir. Rəssamın konsepti ondan ibarətdir ki, o, heç kəslə dialoqa girmir və sərgi haqda danışmağı xoşlamır, hansısa bir məlumatı paylaşmır. O, demək istədiklərini əsərləri vasitəsilə tamaşaçılara çatdırır. Bu ideyanı açıqlamaq üçün dövrün metamorfozlarını, təsir və əks-təsirlərini təcəssüm etdirən heykəl və instalyasiyalar müxtəlif situasiyaların göstəricisi qismində çıxış edir. İnsan və onun ətrafı, hissləri və emosiyaları, təzad və alternativləri üzərində fokuslanan sərgi baş verən bütün proseslərin mərkəzi, əsas iştirakçısı və performeri olan insanı önə çəkir".

Sərgidə ağıllı və küt insan prototipi anlamına gələn iki insan beyni, "pambıqdan" düzəldilmiş nərdivan, "yumşaq qəfəs" nümayiş olunan eksponatlar arasında daha çox nəzərə çarpır.

İnsanı kitab şəklində təqdim edən rəssam öz düşüncəsində onu açıq, həm də bağlı formada görür. Biri ziyalı, oxumuş, digəri isə yatmış, dünyadan xəbərsiz kimi təsvir olunur.

İnsanların həyəcanını göstərmək üçün içərisindən alov püskürən təbil sanki rəssamın təlatümlü aləmindən xəbər verir.

Sərgi Çingizin sənətdə formalaşmasına əhəmiyyətli təsir göstərmiş atası Tofiq Babayevə həsr olunub.

Sərgi oktyabrın 4-dək açıq olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Memarlıq "Nobel"i

## Pritsker mükafatını bu dəfə afrikalı memar aldı



2022-ci ildə Pritsker mükafatı laureatlarının adları açıqlanıb. Münsiflər heyətinin qərarına əsasən, memarlıq dünyasında Nobel mükafatının analoqu sayılan bu mükafat tarixdə ilk dəfə afrikalı sənətkara nəsib olub.

Təşkilat komitəsinin bəyanatında bildirilir ki, bu hazırda Almaniyanın paytaxtı Berlində yaşayan Burkina Faso mənşəli sənətkar 56 yaşlı Dyebedu Fransis Keredir. O, öz əsərlərində yerli materiallara və ənənəvi sənətlərə üstünlük verir. Münsiflər heyəti onu ifrat çatışmazlığı olan ölkələrdə memarlığın pioneri adlandırıb. Müəllifin əl işlərində gözəllik, təvazökarlıq, cəsarət və ixtiraçılıq xüsusi qeyd edilib.

Mətbuata açıqlama verən memar deyib: "Mən paradiqmanı dəyişdirməyə, insanları arzularla yaşamağa və çağırışların qarşısını almağa sövq etməyə ümidvaram. Yalnız zəngin olduğunuza və bunu ödəyə biləcəyinizə görə resursları boşuna sərf etməyin. Amma keyfiyyətli şeylər yaratmaq arzusundan imtina etmək lazım deyil, hətta əgər sən kasıb adamsansa..."

### Kerenin işləri - üç qitədə

Karyerası ərzində Kere həm vətənində, həm də onun hüdudlarından kənarda - Keniyada, Malidə, Uqandada, həmçinin Almaniya və ABŞ-da maraqlı layihələr üzərində işləyib. Onun əsərləri arasında məktəblər, səhiyyə müəssisələri, ictimai binalar və məkanlar var. Memar öz fəaliyyətində yerli materiallara və ənənəvi sənətlərə üstünlük verir.

Məsələn, onun vətənində, Qando kəndində 2001-ci ildə tikilmiş ibtidai məktəb binası deyilənlərə nümunə ola bilər. Tikintidə sement ilə uyğunluqda gildən istifadə edilib, geniş qaldırılmış metal dam isə təbii ventilyasiya yaradır və kondisionerlərsiz ötüşməyə imkan verir. Bundan başqa, Kere layihələndirmə və tikinti mərhələlərində yerli sakinləri işlərə cəlb edib.

### Əvvəlki laureatlar arasında iki alman və Zaha Hadid də var

Pritskerlər ailəsi ("Hyatt" hotelləri şəbəkəsinin sahibləri) tərəfindən təsis edilən nüfuzlu mükafat hər il memarlıq sahəsində əldə olunan nailiyyətlərə görə verilir. 1979-cu ildən verilən mükafatın həcmi 100 min dollar (91 min avroya yaxın) təşkil edir.

Bu sülalənin banisi isə Kiyevdən Çikaqoya köçmüş vəkil Nikolay Yakovleviç Pritskerdir (1871-1956). Mükafat onun nəvəsi Cey Pritsker (1922-1999) tərəfindən təsis edilib.

"Alman dalğası" radiostansiyası xəbər verir ki, onun laureatları iki dəfə almanlar olub. 1986-cı ildə Köln şəhərindəki "Xarabalıqlarda Madonna" kilsəsinin müəllifi Qotfrid Böm memarlıq mükafatını alıb, 2015-ci ildə isə Münhendə Olimpiya Stadionunun dam örtüyünün yaradıcısı Fray Otto ölümündən sonra Pritsker mükafatına layiq görülüb.

Xatırladaq ki, 2012-ci ildə Bakıda açılmış Heydər Əliyev Mərkəzinin inşasına görə Böyük Britaniyanın Dizayn Muzeyinin "İlin Dizaynı" mükafatına layiq görülmüş dünya şöhrətli memar Zaha Hadid tarixdə Pritsker mükafatını alan ilk qadındır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***







## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru professor Ceyran Mahmudovaya anası
**CƏMİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru professor Ceyran Mahmudovaya anası
**CƏMİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və professor-müəllim heyəti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru professor Ceyran Mahmudovaya anası
**CƏMİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5685**
**Sifariş 746**
**Qiymәti 40 qəpik**